QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 142 (5373) 10 avqust 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. Qiyməti 40 qəpik

# Prezident İlham Əliyev paytaxtın keçmiş “Sovetski” ərazisində yeni yolların açılışında iştirak edib



Səh 2

6

Siyavuş Novruzov: “Azərbaycan aqrar sahədə çox böyük uğurlar əldə edəcək”



12

AXCP üzvü Əli Kərimliyə “od püskürüb”, onu yerdən-yerə “vurdu”



13

Ermənistan çıxılmaz vəziyyətdə: Qərb, yoxsa Rusiya?



# Prezident İlham Əliyev paytaxtın keçmiş “Sovetski” ərazisində yeni yolların açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Bakının Yasamal rayonunun keçmiş “Sovetski” ərazisində yenidən qurulan “Statistika” dairəsinin, Nəriman Nərimanov prospektinin və Abdulla Şaiq küçəsinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev yolların texniki göstəricilərini əks etdirən stendlərə baxdı.**

“Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına Bakı şəhərinin keçmiş “Sovetski” ərazisində yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin aparılması” layihəsi çərçivəsində görülən işlər barədə ətraflı məlumat verdi.

Bildirildi ki, 2016-cı ilin avqustundan icrasına başlanan layihəyə uyğun olaraq 26 hektar ərazidə yolların salınması və abadlıq işlərinin aparılması həyata keçirilib. İşlər yüksək keyfiyyətlə, texnoloji ardıcıllığa uyğun, həm də maksimum qısa müddətdə icra olunub. Buraya 23 hektar sahədə yaşıllaşdırma və abadlıq işlərinin, 3 hektar sahədə isə avtomobil yollarının tikintisi işləri daxildir. Ümumi uzunluğu 7 kilometrdən çox olan Nəriman Nərimanov prospekti, Abdulla Şaiq, Balababa Məcidov, Mirzəağa Əliyev və Füzuli küçələrinin yenidən qurulması artıq yekunlaşıb.





Nəriman Nərimanov prospektinin yenidən qurulması zamanı hərəkət zolaqlarının sayı 4-ə çatdırılıb. Abdulla Şaiq küçəsi isə 3 hərəkət zolağından ibarətdir. Layihə çərçivəsində 169 yol nişanı quraşdırılıb. Paytaxt əhəmiyyətli bu layihənin icrası zamanı su, kanalizasiya, yağış sularının axıdılması, qaz, rabitə, elektrik və digər yeraltı kommunikasiyaların tikintisi həyata keçirilib. 5,7 kilometr uzunluğunda drenaj xətti çəkilib, onun üzərində 149 quyu və uzunluğu 1,5 kilometr olan mərkəzi kanalizasiya kollektoru tikilib. Bundan əlavə, 2,6 kilometr uzunluğunda qaz xətti, 5,7 kilometrlik su xətti və abadlaşdırılmış ərazidə 510 metr uzunluğunda ehtiyat keçidlər inşa olunub. Yenidən qurulan yolların üzərində 9 yerdə avtobus dayanacağı quraşdırılıb, müasir işıqlandırma sistemi yaradılıb. Prospekt və küçələrdə fiziki qüsurlu insanların da rahat hərəkəti üçün panduslar qurulub.



Prezident İlham Əliyev yeni yolların rəmzi açılışını bildirən lenti kəsdi. Sonra xatirə şəkli çəkdirildi.

***Ardı Səh. 3***

# Prezident İlham Əliyev paytaxtın keçmiş "Sovetski" ərazisində yeni yolların açılışında iştirak edib

Əvvəli Səh. 2

Daha sonra Prezident İlham Əliyev yenidən qurulan "Statistika" dairəsində görülən işlərlə tanış oldu. Dövlətimizin başçısı burada Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Mikayıl Müşfiqin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, yenidənqurma işlərinin ən əhəmiyyətli hissəsi Dövlət Statistika Komitəsinin qarşısında yerləşən dairənin ləğv olunmasıdır. Bu, hərəkətin intensivliyinin və təhlükəsizliyinin təmin olunmasına geniş imkanlar açıb. İndi həmin yerdə yaşıllıq zolağı salınıb.

Keçmiş "Sovetski" adlanan ərazidə yeni yolların çəkilməsi ilə bağlı görülən işlər Bakının yol-nəqliyyat infrastrukturunun müasir səviyyədə qurulmasında xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Füzulu küçəsindəki parkla Akademik Milli Dram Teatrının arxasında yaradılacaq parkın əlaqələndirilməsi, Füzuli meydanındakı dairədə hərəkətin bağlanması, həmçinin Mirzəağa Əliyev və Füzuli küçələrindən istifadə etməklə Səməd Vurğun küçəsi və Nəriman Nərimanov prospekti arasında nəqliyyatın fasiləsiz və təhlükəsiz hərəkəti təmin olunub. Ümumilikdə yenidən qurulan prospekt və küçələr boyunca 6 min kvadratmetrdən çox ərazidə yaşıllıq salınıb və suvarma sistemi qurulub. Bununla yanaşı, Nəriman Nərimanovun heykəlinin ətrafındakı olduqca sərt sola dönmə də ləğv edilib və bir qədər irəlidə - Nəriman Nərimanov prospektində dairə tipli yeni yol qovşağı tikilib. Yaxın vaxtlarda piyadaların təhlükəsiz hərəkəti üçün Təzəpir məscidinin qarşısındakı sahədə yeni piyada keçidinin tikilməsi, habelə burada 360 yerlik avtomobil dayanacağının salınması nəzərdə tutulub.







# Azərbaycan-Belarus ikitərəfli münasibətləri müxtəlif sahələrdə uğurla inkişaf edir

## *Azərbaycan Prezidenti İlham Əliyev Belarus Dövlət Sərhəd Komitəsinin sədrini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Belarus Respublikası Dövlət Sərhəd Komitəsinin sədri Anatoli Lapponu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Anatoli Lappo Bakıda 1990-cı ildə olduğunu qeyd edərək paytaxtımıza budəfəki səfəri zamanı inanılmaz dərəcədə inkişaf gördüyünü dedi. O, sərhədçi olaraq öz xidmətinə Naxçıvanda zastava rəisi kimi başladığını məmnunluqla vurğulayaraq dedi: "Mən Naxçıvanda zastava rəisi vəzifəsində çalışarkən Azərbaycanın əfsanəvi oğlu Heydər Əliyevlə bir neçə dəfə görüşmək şərəfinə nail olmuşam və o illəri xoş təəssüratla xatırlayıram".



Prezident İlham Əliyev xoş sözlərə görə məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı ötən dövr ərzində Naxçıvanda böyük inkişaf proseslərinin getdiyini vurğulayaraq, qonağın ölkəmizə bu səfərinin onun xidmət etdiyi yerləri yenidən görmək üçün yaxşı imkan yaratdığını dedi. Görüşdə Azərbaycan-Belarus ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iki dövlətin sərhəd xidmətləri arasında əməkdaşlığın əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verdiyi bildirildi.

# Jurnalistlər Prezidentə yazırlar: Mətbuata yüksək diqqət və qayğınız media mənsublarının daha məhsuldar fəaliyyəti üçün stimuldur



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə jurnalistlər üçün tikilən və Milli Mətbuat Günü ərəfəsində istifadəyə verilən ikinci bina 255 mətbuat işçisinin mənzil problemini birdəfəlik həll etdi. Mənzillərin paylanmasında dövlətimizin başçısının iştirakı, həmin gün üçüncü binanın təməlinin qoyulması "Jurnalistlərin dostu" adına layiq görülən Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi yüksək diqqət və qayğının təzahürüdür.***

AZƏRTAC xəbər verir ki, yeni mənzillərin sevincini yaşayan media işçiləri, eləcə də jurnalist kollektivləri bu nəcib təşəbbüsə görə Prezidentə çoxsaylı təşəkkür məktubları ünvanlamaqda davam edirlər.

Veteran jurnalist Akif Cabbarov məktubunda yazır: "Hörmətli cənab Prezident, Sizin Azərbaycan mətbuatının inkişafına, jurnalistlərin sosial ehtiyaclarının ödənilməsinə istiqamətlənmiş siyasətinizi ürəkdən bəyənir, Sizə möhkəm cansağlığı, dövlətimizin daha da tərəqqisi yolunda fəaliyyətinizdə uğurlar arzulayıram. Yeni mənzil alanlar arasında mən də varam və bir veteran jurnalist kimi ailəmizə həddsiz sevinc yaşatdığınıza görə Sizə minnətdarlığımızı bildiririk".

Prezidentin təşəbbüsü ilə ölkəmizdə daha bir yaşayış binasının 255 jurnalistin ixtiyarına verilməsi mətbuat tariximizdə mühüm bir hadisə olmaqla yanaşı, həm də Azərbaycan KİV-nə növbəti qayğı və diqqətin bariz nümunəsi, beynəlxalq səviyyədə analoqu olmayan təmənnasız humanist dəstək kimi dəyərləndirildiyini deyən "Elçi" qəzetinin baş redaktoru Əli Həziquliyev məktubunda qeyd edir: "Cənab Prezident, Siz bu xeyirxah təşəbbüsünüzlə azad sözün, azad mətbuatın və jurnalist azadlığının əsas təminatçısı olduğunuzu bir daha sübuta yetirdiniz. Bir daha bütün dünyada medianı ölkə problemlərini işıqlandırmağa səfərbər edən müdrik strateq kimi tanındınız. Siz bununla həm də mətbuatı dövrün tələtümlərindən, ictimai burulğanlarından xilas edib, onu Azərbaycan platformasına çıxaran böyük vətənpərvər olduğunuzu sübuta yetirdiniz.

Möhtərəm Prezident, sözün həqiqi mənasında, mətbuatın əsl təəssübkeşi, jurnalistlərin böyük dostu olduğunuza görə ailəm, eləcə də həmkarlarım adından Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram".

Digər bir minnətdarlıq məktubuna nəzər yetirək. CBC telekanalının baş direktoru Azər Xəlilov yazır: "Möhtərəm cənab Prezident, Azərbaycan jurnalistikasına və media işçilərinə daim göstərdiyiniz diqqət və qayğıya görə rəhbərlik etdiyim CBC telekanalının kollektivi adından və şəxsən öz adımdan Sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Milli Mətbuat Günü ərəfəsində məişət şəraitinin yaxşılaşdırılması məqsədilə KİV işçilərinin mənzillə mükafatlandırılması, Sizin həyata keçirdiyiniz digər tədbirlər media işçilərinə qayğı və diqqətin dünya miqyasında nadir nümunəsidir. Media sahəsinə göstərdiyiniz qayğı jurnalistlərin daha məhsuldar və səmərəli fəaliyyəti üçün əlavə stimuldur. Sizin bu addımlarınız Azərbaycanda sabitliyin, sosial ədalətin, söz azadlığı və plüralizmin daha da möhkəmlənməsinə xidmət edir, iqtidarla xalqın vəhdətini daha da gücləndirir. Sizin gündəlik fəaliyyətiniz, Azərbaycanın milli və dövlət maraqlarını qətiyyətlə və güzəştsiz müdafiə etməyiniz biz jurnalistlər üçün vətənpərvərliyin və informasiya cəbhəsində məharətli ideoloji mübarizənin parlaq nümunəsidir.

Möhtərəm cənab Prezident, Sizin proqram xarakterli nitqinizdə göstərilən istiqamətlərə uyğun olaraq vətənpərvər, məsuliyyətli, obyektiv jurnalistikanın inkişafı və Azərbaycan həqiqətlərinin, ölkəmizin haqq səsinin dünyaya çatdırılması, düşmən üzərində Böyük Qələbəmiz naminə biz jurnalistlər fəaliyyətimizi daha fədakarlıq və əzmkarlıqla davam etdirəcəyik".

Jurnalistlər üçün tikilən binada "Lider" televiziyasının 6 əməkdaşı da mənzillə təmin edilib. İlqar Əsədov, Mətanət Ağamirli, Elnarə Dərziyeva, Fizuli Elyazov, Maarif Məhərrəmbəyli və Fuad Dostəliyevin Prezidentə ünvanladıqları məktubda deyilir: "Möhtərəm cənab Prezident, ümummilli liderimiz Heydər Əliyev 2001-ci ildə jurnalistlərlə görüşlərindən birində Azərbaycan Prezidenti kimi söz, mətbuat azadlığının təminatçısı olduğunu vurğulamışdı. Hazırda Sizin bu missiyanı şərəflə davam etdirməyiniz bir vətəndaş kimi bizi qürurlandırır. 2003-cü ildən bəri həm də azad sözün, mətbuatın inkişafındakı misilsiz xidmətlərinizə görə media nümayəndələri Sizi ölkə üzrə keçirilən sorğuda "Jurnalistlərin dostu" seçib. Həmin mükafatın təqdimatında Siz jurnalistlərin dostu olmağın böyük şərəf və məsuliyyət olduğunu bildirdiniz.

Bu gün minlərlə həmkarımız kimi, biz də Sizinlə dostluğumuzdan, beynəlxalq arenada Sizin kimi qüdrətli liderimizin söz sahibi olmasından sonsuz qürur hissi duyuruq.

Cənab Prezident, illər öncə biz jurnalist olaraq fəaliyyətə başlayanda və bu illər ərzində bir vətəndaş kimi Vətənimizə, dövlətimizə, xalqımıza xidmət göstərəndə nə vaxtsa KİV nümayəndələrinə mənzil veriləcəyi ilə bağlı fikirlər belə yox idi. Təmənnasız, qarşılıqsız, illərlə fədakarlıqla çalışan jurnalistlərin əməyinə cavab olaraq "Jurnalistlər şəhərciyi" yaratmağınız Sizin çox nəcib, humanist, insanpərvər şəxsiyyət kimi hər bir azərbaycanlının Prezidenti olduğunuzu bir daha təsdiq edir.

Azərbaycan mətbuatının yaranmasının 142-ci ilində 255 jurnalist ailəsinə bəxş etdiyiniz sevinc dövlətimizin gücünü, öz vətəndaşına, sözə və mətbuata münasibətini göstərdi, hətta tənqidçi jurnalistlərin, dünyasını dəyişmiş media nümayəndələrinin yükünü öz üzərinə götürməsi ilə ortaya misilsiz bir nümunə qoydu. Şübhəsiz ki, bütün bu addımlar Azərbaycan jurnalistikasının inkişafını, mətbuat nümayəndələrinin öz peşəkarlığını artıraraq, informasiya savaşında daha da səylə çalışmasını şərtləndirən amillər rolunda çıxış edir. Əminik ki, Sizin təşəbbüs və rəhbərliyinizlə jurnalistlərin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən layihələr bizim və bütün media nümayəndələrinin yaradıcılığında, peşəkarlığında, fəaliyyətində özünü göstərəcək.

Bu gün yeni bir Azərbaycan qurulur. Bu müasir məmləkətin qurucusu məhz Sizsiniz! Azərbaycan dünyanın nüfuzlu dövlətləri sırasında söz sahibidir. Bakıdan tutmuş ən ucqar kəndlərə qədər Azərbaycan başdan-başa abadlaşır, gözəlləşir. Şərqlə Qərbin harmoniyasını əks etdirməklə müasirləşir. Bölgələr daha da sürətlə inkişaf edir. Saysız-hesabsız iş yerləri açılır, məcburi köçkünlərin sosial problemləri həllini tapır və s. Həmçinin Azərbaycan jurnalisti məhz Sizin qayğınızla dövlət tərəfindən evlə təmin olunur. Bütün bu uğurlar, nəticələr, gözəlliklər məhz Sizin adınızla bağlıdır, cənab Prezident! Bütün bu fundamental quruculuq işlərinə görə, biz jurnalistlər Sizə sonsuz təşəkkürümüzü bildiririk. Möhtərəm Prezident, "Lider" televiziyasının mənzillə mükafatlandırdığınız altı əməkdaşı adından Sizə minnətdarlıq edir, Azərbaycanımız naminə yorulmaz fəaliyyətinizdə Sizə möhkəm cansağlığı və böyük uğurlar diləyirik!"

## Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Heydər Əliyev Mərkəzində olub



Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycana rəsmi səfəri çərçivəsində avqustun 9-da Heydər Əliyev Mərkəzində olub. AZƏRTAC xəbər verir ki, Türkmənistan Prezidentinə müasir Bakının rəmzinə çevrilən Mərkəzin fəaliyyəti haqqında məlumat verilib. Bildirilib ki, Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin tədqiqi və təbliği, Azərbaycanın tarixi və mədəniyyətinin, milli-mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılması, eləcə də dünya mədəniyyəti nümunələrinin ölkəmizdə tanıdılması istiqamətində fəaliyyət göstərir. Mərkəzdəki Heydər Əliyev Muzeyində toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. Ümummilli Liderin həyat yolu haqqında maraqlı faktlar foto və videomateriallar vasitəsilə təqdim olunur. Hər bir mövzuya aid materiallar səsli formada həm Azərbaycan, həm də ingilis dilində verilir. Mərkəzdə müxtəlif mövzuları əhatə edən sərgilər açılıb.

Ali qonaq Mərkəzdəki "Azərbaycan inciləri" sərgisi ilə tanış olub. Dövlət başçısının diqqətinə çatdırılıb ki, Azərbaycan tarixini və mədəniyyətini əks etdirən bu ekspozisiyada ölkənin tükənməz təbii sərvətlərinə, çoxəsrlik tarixinə, mədəni irsinə dair nadir eksponatlar nümayiş olunur. Bu sərgi Azərbaycan tarixi və mədəniyyətini öyrənmək üçün interaktiv və müasir vasitə kimi diqqəti çəkir.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Mərkəzin xatirə kitabına ürək sözlərini yazıb.

## Azərbaycanda fındıqçılığın inkişaf perspektivləri müzakirə olunub



Azərbaycanın kənd təsərrüfatı naziri Heydər Əsədov "Ferrero" şirkətinin aqrobiznes koordinatoru Daniel Dellaça ilə görüşüb. Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşün məqsədi Azərbaycanda fındıqçılığın inkişaf perspektivləri, əməkdaşlığın qurulması ilə bağlı müzakirələrin aparılması olub. Görüşdə çıxış edən Heydər Əsədov dövlətimizin başçısının fındıqçılığın inkişafı ilə bağlı tapşırıqlarına əsasən respublikamızda həyata keçirilən tədbirlər və əldə olunmuş uğurlar barədə məlumat verib. Qeyd edib ki, ölkəmizdə fındıqçılığın inkişafı üçün böyük potensial var, fermer və sahibkarlar ən çox valyuta gətirən strateji məhsullar arasında olan fındığın becərilməsinə, fındıq bağlarının salınmasına böyük maraq göstərir. Nazir, həmçinin ölkəmizin coğrafi-iqlim şəraitinin bu sahənin inkişafı üçün əlverişli olduğunu bildirərək deyib: "Fındıq istehsalı kənd təsərrüfatının inkişafında önəmli rol oynayır. Bununla yanaşı, məhsulun artırılması məqsədi ilə dövlət tərəfindən fındıq istehsalçılarına güzəştli kreditlər verilir, fındıq pöhrələri alınaraq fermerlərə pulsuz paylanılır. Bu isə yeni bağların salınmasına, fındıq istehsalının daha da artırılmasına geniş imkanlar açır".

"Ferrero" şirkətinin aqrobiznes koordinatoru Daniel Dellaça təmsil etdiyi şirkətin Azərbaycanda fındıqçılığın inkişafına önəm verdiyini və bu sahədə əməkdaşlığın daha da genişlənməsi üçün öz səylərini əsirgəməyəcəyini bildirib.

## "Qaraca-fındıq" MMC-nin direktoru: Respublika müşavirəsi ölkənin iqtisadi həyatında mühüm hadisəyə çevrilib



Prezident İlham Əliyevin sədrliyi ilə avqustun 4-də Qaxda keçirilən barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi ölkəmizin iqtisadi həyatında mühüm hadisəyə çevrilib. Mənim üçün çox sevindiricidir ki, bu mötəbər tədbirin iştirakçıları arasında idim. Müşavirədə əsrlər boyu Zaqatala, Balakən, Qax, Şəki və bölgənin digər rayonlarının iqtisadiyyatında mühüm rol oynayan baramaçılıq, tütünçülük və fındıqçılığın inkişaf etdirilməsi istiqamətində atılacaq növbəti addımların, tədbirlərin təməli qoyulub. Bu fikirləri Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının üzvü, "Qaraca-fındıq" MMC-nin təsisçi-direktoru Ramazan Qaracayev Zaqatalada AZƏRTAC-a müsahibəsində deyib. Assosiasiyanın yaradılmasının fermerlərin və fındıq ixracatçılarının fəaliyyətini xeyli dərəcədə asanlaşdırdığını vurğulayan R.Qaracayev bildirib ki, fermerlərin qarşılaşdıqları çətinliklərlə bağlı müxtəlif təşkilatlara ünvanladıqları müraciətlər artıq tez bir zamanda həll olunur, onlara lazımi kömək göstərilir. Dövlətimizin başçısının tez-tez bölgələrə səfər etməsi, həyata keçirilən layihələrin icra vəziyyəti ilə şəxsən maraqlanması, tövsiyələr verməsi ölkədə işsizliyin və yoxsulluğun aradan qaldırılmasına öz töhfəsini verir. "Əminəm ki, Prezident İlham Əliyevin Balakən, Zaqatala və Qax rayonlarına budəfəki səfəri, avqustun 4-də Qaxda keçirilən respublika müşavirəsinin nəticələri bölgə əhalisinin sosial rifahının yaxşılaşmasında mühüm rol oynayacaq", - deyə Ramazan Qaracayev bildirib.

## Ombudsman Ermənistan ordusunun mülki əhalini hədəfə alması ilə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayıb



Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova Ermənistan ordusu tərəfindən mülki əhalinin, xüsusən də uşaqların hədəfə alınması ilə bağlı BMT-nin baş katibinə, Təhlükəsizlik Şurasına, insan hüquqları üzrə ali komissarına, UNICEF-ə, İslam Əməkdaşlıq Təşkilatına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə və müxtəlif ölkələrin ombudsmanlarına müraciət ünvanlayıb.

Ombudsman Aparatından AZƏRTAC-a daxil olan müraciətin mətnində bildirilir ki, Ermənistan silahlı qüvvələrinin bölmələri 2017-ci il avqustun 7-də Azərbaycanın işğal olunmuş ərazilərindən Tovuz rayonunun Ermənistanla həmsərhəd olan Qaralar kəndini iriçaplı silahlardan atəşə tutub. Mülki əhalinin qəsdən məhv edilməsi məqsədilə törətdikləri növbəti təxribat nəticəsində Qaralar kənd sakini, 2004-cü il təvəllüdlü 13 yaşlı Yusifov Ramin Sabir oğlu qəlpə xəsarətləri alaraq ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib. Mülki insanların, o cümlədən uşaqların hədəfə alınması və qətlə yetirilməsi məqsədi daşıyan qəddar əməllər işğalçı Ermənistanın yürütdüyü davamlı terrorizm siyasətinin tərkib hissəsidir.

İyulun 4-də isə Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan çoxsaylı mülki əhalinin yaşadığı yaşayış məntəqələri və mülki obyektlər hədəflənmiş şəkildə, qəsdən 80 və 102 millimetrlik minaatanlardan, dəzgahlı qumbaraatanlardan atəşə tutulub, nəticədə 1967-ci il təvəllüdlü Allahverdiyeva Sahibə və onun 2 yaşlı nəvəsi Quliyeva Zəhra həlak olub, digər mülki şəxs, 1965-ci il təvəllüdlü Quliyeva Səlminaz ağır yaralanıb və mülki obyektlər dağıdılıb.

Göründüyü kimi, Ermənistan özünün təcavüzkar əməllərindən əl çəkməyərək ordumuzun cəbhəboyu mövqelərini və mülki əhalinin yaşadığı əraziləri iriçaplı silahlardan intensiv atəşə tutmaqla beynəlxalq humanitar hüquq normalarının tələblərini kobud surətdə pozmaqda davam edir.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı 25 ildən artıq davam edən, minlərlə günahsız insanın həyatına son qoyulması, kütləvi şəkildə insan hüquqlarının kobudcasına pozulması, dünya mədəniyyətinə mənsub tarixi, dini və mədəni abidələrin tam dağıdılması ilə nəticələnən hərbi təcavüz etnik təmizləmə və terror aktlarının davamı olan növbəti bir cinayət aktı kimi qiymətləndirilməli, beynəlxalq hüquq normalarına əsasən həmin cinayətləri törədənlərin cəzalandırılması istiqamətində təsirli tədbirlər görülməlidir.

Cəzasızlıq mühitinin arxayınçılığı elə səviyyəyə çatıb ki, dəfələrlə törətdiyi vəhşiliklər, xüsusilə azyaşlı uşaq və qadınları hədəfə alması beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə pislənilməsinə baxmayaraq, Ermənistan bu çirkin əməllərindən nəticə çıxarmayaraq avqustun 7-də 13 yaşlı Ramin Yusifovun yaralanması ilə nəticələnən növbəti cinayəti törətməkdən belə çəkinməyib.

Müraciətdə daha sonra qeyd olunur ki, Ermənistan 1988-ci ildən başladığı və uzun müddətdir ara verməden davam etdirdiyi hərbi təcavüz nəticəsində Azərbaycanın Dağlıq Qarabağ ərazisini, eləcə də ətraf yeddi rayonu işğal edib, bununla da ölkəmizin ərazisinin 20 faizi zəbt olunub, bir milyon soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olub.

2016-cı il aprelin 2-dən 5-dək Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhalinin yaşadığı çoxsaylı yaşayış məntəqələrinin, məktəb və digər sosial obyektlərin, habelə Azərbaycan Silahlı Qüvvələrinin qoşunların təmas xətti boyunca mövqelərinin ağır artilleriyadan, iriçaplı silahlardan intensiv atəşə tutulması nəticəsində cəbhə xətti boyunca 34 mülki şəxs yaralanıb, aralarında uşaq olmaqla 6 nəfər həlak olub.

Ermənistanın Azərbaycan mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin uşaqların hüquqlarına və insan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Bu hadisələr isə Ermənistanın təcavüzkar siyasətini, qeyri-insani hərəkətlərini növbəti dəfə təsdiqləyərək, beynəlxalq hüquq normalarına saymazyana münasibət göstərdiyini bir daha sübut edir.

Ombudsman müraciətdə deyir: "Bununla bağlı dünya birliyinə, mötəbər beynəlxalq qurumlara və həmkarlarıma bir daha müraciət edərək, Azərbaycana qarşı aparılan uzunmüddətli erməni təcavüzünə, dinc əhalinin qətlə yetirilməsinə, kütləvi şəkildə insan hüquqlarının pozulmasına son qoyulması üçün yalnız pislənmək deyil, qətiyyətli səylər göstərməyə çağırıram.

Beynəlxalq ictimaiyyət bu cür qəddarlıq, amansızlıq və qeyri-insani hadisələrə laqeyd qalmamalı, beynəlxalq cinayətləri törətmiş işğalçı Ermənistanın BMT Nizamnaməsinə müvafiq olaraq cəzalandırılmasına nail olmalıdır".

## Moskvalı haker Vladimir Putinin şəkli olan dollar çap etdirir



Moskvalı haker qazanc əldə etmək üçün qeyri-adi üsula əl atıb. AZƏRTAC "vista-news.ru"ya istinadla xəbər verir ki, haker Rusiya Prezidenti Vladimir Putinin təsviri olan suvenir dollar çap etdirir. Suvenir pulu daha çox "Police Dog" təxəllüsü ilə tanınan Sergey Pavloviç buraxır. Haker, həmçinin ABŞ Prezidenti Donald Trampın rəsmi olan suvenir dollar da çap etdirir. Qeyd edək ki, 2000-ci ilin sonlarında Sergey Pavloviç ABŞ ərazisində 40 milyon dollar oğurladığına görə mühakimə olunmuşdu.

# Siyavuş Novruzov: "Azərbaycan aqrar sahədə çox böyük uğurlar əldə edəcək"

*Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun SİA-ya müsahibəsi:*

***- Siyavuş müəllim, Qax rayonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən respublika müşavirəsində ölkə rəhbərinin toxunduğu məsələlər müzakirə olunmaqdadır. Siz bunu necə şərh edərdiniz?***

- Hesab edirəm ki, bu gün Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı çox böyük işlər gedir. Cənab Prezidentin göstərişlərinə və tapşırıqlarına əsasən, Azərbaycan iqtisadiyyatının yeni bir mərhələsinə start verilib. Kənd təsərrüfatının inkişafına qoyulan vəsaitlər, investisiyalar özünü doğrultmaqdadır. Qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olaraq emal müəssisələrinin, zavod və fabriklərin açılması, yeni iş yerlərinin yaradılması, insanların yenidən əkin-biçinlə məşğul olması diqqət mərkəzindədir. Məhz bunun nəticəsi olaraq həm insanların gəlirləri artır, həmçinin ölkənin ərzaq təhlükəsizliyi məsələsi həll olunur, eləcə də Azərbaycanın istehsal etdiyi kənd təsərrüfatı məhsulları ölkəyə xarici valyuta gətirir. Bu gün tək Azərbaycan bazarları deyil, eləcə də ayrı-ayrı ölkələrin bazarlarında da Azərbaycan məhsulları çox yüksək qiymətləndirilir. Çünki ölkəmizdə istehsal olunan məhsullar ekoloji cəhətdən təmiz, həmçinin keyfiyyətlidir. Ona görə də xarici bazar problemimiz yoxdur. Bu baxımdan kənd təsərrüfatına qoyulan investisiyalar qısa müddət ərzində həm özünü doğruldacaq, həm də ölkəmizə əlavə gəlirlər gətirəcək. Qeyd edim ki, bundan öncə Sabirabad rayonunda Prezidentin iştirakı ilə keçirilən müşavirədən sonra atılan addımlar nəticəsində kənd təsərrüfatının inkişafına qoyulan investisiyalar artıq öz bəhrəsini verməkdədir. Keçirilən müşavirələrdə ayrı-ayrı rayonlarda istehsal olunacaq məhsulların miqdarı, onların gətirəcəyi gəlirlər, qoyulan investisiyalar və s. məsələlərin müzakirəsi aparılır və öz həllini tapır. Məhz bunun nəticəsidir ki, son zamanlar yüksək göstəricilər əldə edilir. Əgər ötən il 20 ton barama məhsulu istehsal olunmuşdusa, artıq bir rayonda 27-28 ton barama məhsulu istehsal olunur. Eləcə də yeni tut ağacları əkilir ki, bu da ipəkçiliyin inkişafına geniş imkanlar yaradır. 12 iqlim qurşağından 9-u Azərbaycanda olduğuna görə, tütün, meyvəçilik, tərəvəzçilik, pambıqçılığın inkişafı üçün əlverişli şərait var. İnanırıq ki, Azərbaycan aqrar sahədə çox böyük uğurlar əldə edəcək.

***- Prezident İlham Əliyev dəfələrlə məmurlara öz övladlarının, ailə üzvlərinin hərkətlərinə nəzarət etməyi tapşırıb, qanunları pozan məmur övladlarının cəzalandırılacağı xəbərdarlığını edib. İndiyədək bir***



***neçə məmur övladı və qohumu cəzalandırılıb, özləri işdən çıxarılıb. Lakin görünür digərləri bundan nəticə çıxartmayıb. Siz bu barədə hansı fikirdəsiniz?***

- Ümumilikdə götürdükdə, Azərbaycan Prezidenti İlham Əliyevin bir tələbi var ki, hər bir dövlət məmuru vəzifəyə təyin olunarkən onun qarşısında ən ali məqsəd xalqa xidmət dayanmalıdır. Yəni hər bir məmur vəzifəyə təyin olunur ki, xalqa xidmət göstərsin və xalqın, cəmiyyətin problemlərini həll etsin, problemlər yaratmasın. Ölkə başçısı bununla bağlı dəfələrlə keçirdiyi müşavirələrdə deyib ki, nəinki həmin məmurlar işdən azad olunacaq, hətta cəzalandırılacaq. Bu baxımdan da hesab edirəm ki, Azərbaycanda bu proses gedir və hər kəs də bundan ibrət dərsi götürməlidir.

***- Bu bir faktdır ki, Ermənistan daha çox Azərbaycanın mülki vətəndaşlarını hədəf seçib. Dünya Birliyinin Ermənistanın bu qəddar siyasətinə göz yumması nədən irəli gəlir?***

- Ermənistanın bu məkrli siyasətinin arxasında çox gizli bir niyyət dayanır. Əslində Ermənistan məlum aprel hadisələrinə kimi gözləyirdi ki, əgər hər hansı bir müharibə baş verəcəksə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) daxil olan ölkələr rəsmi İrəvanı ciddi şəkildə müdafiə edəcək, bir yerdə Azərbaycana qarşı qoşun yeridəcək və Ermənistan da rahat şəkildə işğalçılıq əməllərini davam etdirəcək. Lakin İrəvan bir şeyi yaddan çıxarır ki, beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq istər Dağlıq Qarabağ, istərsə də işğal olunmuş digər ərazilər Azərbaycanın BMT tərəfindən tanınılmış əraziləridir. Yəni Azərbaycan beynəlxalq hüququn prinsiplərini rəhbər tutaraq orada istər anti-terror əməliyyatları, istərsə də ərazi bütövlüyünün bərpası ilə məşğul olmaq hüququna malikdir. Buna BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin, Avropa Şurasının, Avropa Parlamentinin, NATO Parlament Assambleyasının, ATƏT-in və digər qurumların çıxardığı qərarlar da tam hüquqi əsas verir. Göründüyü kimi Ermənistan aprel hadisələrində nə qədər müraciət etsə də həmin dövlətlər qeyd etdilər ki, Azərbaycan öz ərazisi çərçivəsində bu tədbirləri həyata keçirir. Başqa bir dövlətin Azərbaycanın dövlət ərazisinə müdaxilə etmək hüququ yoxdur. Bu artıq işğalçılıq siyasəti adlandırıla bilər. Bu baxımdan Ermənistan ciddi-cəhdlə çalışır ki, nəinki bizim ordumuzun mövqelərinə, eyni zamanda paralel olaraq dinc sakinlərin yaşadığı və təsərrüfat işləri ilə məşğul olduqları ərazilərə də atəş açsın. Çalışırlar ki, bunun nəticəsində insanları vahimədə saxlasınlar, onlara xəsarət yetirsinlər, öldürsün və yaralasınlar. Ermənistan hətta iriçaplı silahlardan istifadə etməkdən çəkinmir. Rəsmi İrəvan hesab edir ki, bu hərəkətləri ilə Azərbaycanı qıcıqlandıracaq. Ermənilərin xislətidir ki, birgə yaşadıqları ölkənin xalqlarına, o cümlədən qonşu xalqlara qarşı qəddar davransınlar, terror etsinlər. Bu, ermənilərin həyat tərzidir. Biz bunu Xocalıda gördük, Qarabağın digər yaşayış məntəqələrində ermənilərin törətdikləri vandalizm, soyqırımı hadisələri zamanı gördük, dünyanın ayrı-ayrı ölkələrində türk diplomatlarına qarşı təşkil olunmuş terror aktlarında da gördük. Həmçinin biz Bakı metrosunda, sərnişin qatarlarında, avtobuslarda 20-dən artıq terror aktının həyata keçirilməsinə şahidlik etmişik. Eləcə də bu yaxınlarda Füzuli rayonunun Alxanlı kəndində törədilən vəhşiliyi gördük. Bu, erməni xüsusiyyəti və ermənilikdir.

***- Ümumiyyətlə, Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistana müharibə etməsinə nə mane ola bilər?***

- İlk növbədə Ermənistanın Azərbaycanla müharibə aparmağa gücü çatmaz. Bilirsiniz ki, əgər bu məsələnin həlli Azərbaycanla Ermənistana qalsa bizə bir həftə lazımdır ki, İrəvana qədər qədim Azərbaycan torpaqlarını qaytarsın, ədaləti bərpa etsin. Həm Azərbaycan ordusunun psixoloji durumu, hərbi texnikası, təchizatı, təlimi, həm də Ali Baş Komandanın iradəsi, xalqla bir yerdə olması, xalqın ona olan dəstəyi bunları deməyə əsas verir. O baxımdan da Ermənistan bu addımları ata bilmir və himayəçilərindən bu proseslərdə istifadə etməyə çalışır.

***- Siyavuş müəllim, Yeni Azərbaycan Partiyası rayon təşkilatlarında konfranslar keçirir. Bu istiqamətdə görülən işlər və qarşıda duran vəzifələr barədə nə deyə bilərsiniz?***

- Bu konfranslar 5 ildən bir keçirilir. Yeni Azərbaycan Partiyasının 84 rayon və şəhər təşkilatı var. Onun artıq 63-də bu konfranslar keçirilib. Hazırda 21 təşkilatımızda bu konfransların keçirilməsinə hazırlıqlar davam edir. Bu il bildiyiniz kimi YAP-ın 25 illiyi tamam oldu. Biz sentyabr ayından etibarən silsilə tədbirlərə başlayacayıq. Ötən 5 il müddətində partiya sıralarına kifayət qədər yeni insanlar daxil olub. Onların 70 faizini gənclər təşkil edir. Partiyanın yerli strukturlarının rəhbər orqanlarında (rayon şurasında, rayon idarə heyətində, sədrlərdə, sədr müavinlərində, o cümlədən nəzarət təftiş qruplarında) müvafiq dəyişikliklər olunur. Bu proses artıq davam etdirilir. Əgər 5 il bundan öncə YAP-ın sıralarında az insan cəmləşmişdisə, artıq partiyanın sıralarında 700 mindən artıq partiya üzvü cəmləşib. Bilirsiniz ki, Prezident seçkiləri ilə bağlı işimiz çoxdur. Bununla bağlı proqramımız hazırlanır. Hazırda biz bu proqramı İdarə Heyətinin təsdiqinə təqdim edəcəyik. Məntəqə, dairə seçki komissiyalarında məşvərətçi səs hüquqlu üzvlər, müşahidəçilər, imza toplayacaq şəxslər, təbliğat materiallarının açılması, yapışdırılması, çatdırılması ilə məşğul olan şəxslər və s. hər biri proqram əsasında hazırlanır. Seçkilərə start verilənə kimi biz bu işləri bitirməliyik. Ona görə də ikinci mərhələdə partiya qarşısında duran çox böyük işlər var. Sentyabrdan etibarən seçkilərə qədər çox aktiv və gərgin şəkildə bu işlər öz həllini tapmalıdır.

***- Maraqlıdır ki, dağıdıcı müxalifət YAP-ın keçirdiyi konfranslara əksər hallarda qısqanclıqla yanaşır. Sizcə, bunun səbəbi nədir?***

- YAP-ın rayon təşkilatında keçirilən konfrans müxalifətin qurultayından daha möhtəşəmdir. Bizim 20 mindən artıq ilk partiya təşkilatlarımız var. Bəzi təşkilatlarımızda hətta 26-28 min partiya üzvü cəmləşib ki, bu da müxalifətdə təmsil olunanların ümumi sayından çoxdur. Buna görə də müxalifət qıcıqlanır. İctimaiyyətdə tanınmış əksər simalar YAP-ın sıralarındadır. Bu mənada onlar təşvişə düşürlər və öz narahatçılıqlarını başqa formada ifadə edirlər.

***- Milli Məclis deputatlarının etik davranış qaydaları barədə qanun qüvvəyə mindi. Bundan sonra atılacaq addımlar nədən ibarət olacaq?***

- Bilirsiniz ki, bu məsələlər həm Azərbaycan Respublikasının Konstitusiyasında, həm də daxili nizamnamədə öz əksini tapıb. Həmçinin biz referendum yolu ilə Konstitusiyada müvafiq dəyişikliklər etdik. Bununla əlaqədar olaraq da deputat statusu haqqında qanuna, parlamentin daxili nizamnaməsinə uyğun olaraq deputatların etik kodeksi ilə bağlı bir qanun qəbul olundu. Bildiyiniz kimi cənab Prezident İlham Əliyev də bununla bağlı sərəncam verdi və artıq qanun qüvvəyə minib. Əvvəllər əsas prinsiplər parlament daxilində olan məsələlər idi. Hansı ki, parlament çərçivəsində hər hansı bir millət vəkili etik davranış qaydalarını pozurdusa, onun məsələsi intizam komissiyası tərəfindən müzakirə olunurdu və müvafiq qərarlar çıxarılırdı. Bu qərar ona töhmət elan olunması, xəbərdarlıq, əməkhaqqının kəsilməsi idi və s. Son həddə isə deputat mandatından məhrum olunması idi. Hazırda bu məsələlər bir qədər genişləndirilib.

## Respublika Komissiyası barama istehsalçılarına subsidiyanın verilməsi barədə qərar qəbul edib

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında" 2016-cı il 15 sentyabr tarixli Sərəncamına uyğun olaraq, Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli qərarı ilə təsdiq edilmiş "Barama istehsalı ilə məşğul olan şəxslərə barama emalı və ipək istehsalı müəssisələrinin qəbul etdiyi bütün növ yaş baramanın hər kiloqramına görə subsidiyanın verilmə Qaydası"na əsasən barama istehsalçılarına barama emalı və ipək istehsalı müəssisələrinə təhvil verdikləri yaş baramanın (əyrilən və karapaçax barama istisna olmaqla) hər kiloqramına görə 5 manat məbləğində subsidiyanın verilməsi üzrə Respublika Komissiyasının yekun iclası keçirilib. Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətindən bildirilib.

Komissiyanın iclasında barama istehsalçılarına subsidiyanın verilməsi ilə əlaqədar 10 rayon (şəhər) kənd təsərrüfatı idarəsinin təqdim etdiyi sənədlər baxılıb və 1035 barama istehsalçısına barama emalı və ipək istehsalı müəssisələrinə təhvil verdikləri 106 min 307,16 kiloqram yaş baramanın hər kiloqramına görə 5 manat hesabı ilə dövlət büdcəsinin vəsaiti hesabına, ümumilikdə, 531 min 535,80 manat məbləğində subsidiyanın verilməsinə dair qərar qəbul edilib.

Barama istehsalçılarına subsidiyanın ödənilməsi məqsədilə müvafiq sənədlər Maliyyə Nazirliyinə, "Kapital Bank" ASC-yə və aidiyyəti rayon (şəhər) kənd təsərrüfatı idarələrinə göndərilib. Respublika Komissiyası tərəfindən 2017-ci ildə ölkə üzrə, ümumilikdə, 2421 barama istehsalçısına 239 min 790,78 kiloqram yaş baramanın miqdarına görə dövlət büdcəsinin vəsaiti hesabına 1 milyon 198 min 953,90 manat məbləğində subsidiyanın verilməsinə dair qərar qəbul edilib.

# Ölkə başçısının regionlara hər səfəri sosial rifahın inkişafına doğru atılan addımdır

## İlham Əliyev: "Ölkəmizin inkişafı, eyni zamanda bölgələrin inkişafından keçir"



**Bu gün regionların inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verdi.**

Eyni zamanda, dövlət başçısının bölgələrə səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir.

Sosial-iqtisadi xarakterli yeni obyektlərin açılması ölkənin sənaye sahəsində çox





ciddi işlərin aparıldığını göstərir. Artıq uzun müddətdir ki, Azərbaycanın iqtisadi inkişaf mərkəzi paytaxt Bakıdan regionlara keçib. Regionlarda yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması, bankların filiallarının təsis edilməsi, infrastrukturun yaxşılaşdırılması, on minlərlə yeni iş yerlərinin açılması, sənaye məhsullarının istehsalının reallaşması Azərbaycanın regionda cəlbedici ölkəyə çevrilməsinə şərait yaradıb.

Həmçinin, xüsusi olaraq vurğulamaq lazımdır ki, son illər ərzində ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədi yerinə yetirən və Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin, müntəzəm olaraq regionlara səfərlər etməsi, insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla və gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub həyata keçirməkdə imkanlar yaradır, hakimiyyətlə xalqın birliyini möhkəmləndirir. Məhz bunun nəticəsidir ki, son on iki ildə həyata keçirilən məqsədyönlü islahatlar, bir sıra ümummilli proqramlar, mühüm infrastruktur layihələrin uğurla reallaşdırılması ölkəmizin sosial-iqtisadi mənzərəsini xeyli dərəcədə dəyişmiş, tarazlı inkişaf və davamlı yüksəliş üçün möhkəm əsas yaratmışdır. Təkcə, onu demək kifayətdir ki, ötən illər ərzində Azərbaycanda həyata keçirilən uğurlu neft strategiyası və iqtisadi islahatlar nəticəsində, iqtisadiyyatımız dəfələrlə artmış, ölkənin ümumi valyuta ehtiyatları çoxalmışdır.

### Vətəndaşların problemlərini şəxsən dinləyən dövlət başçısı

Prezident İlham Əliyevin Azərbaycanın şəhər və rayonlarına hər bir səfəri insanların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin, sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Ötən illər ərzində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədləri yerinə yetirən və beləliklə, Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan dövlətimizin başçısı İlham Əliyev hər bir addımda vətəndaşların mənafeyini əsas götürmüşdür.

Bu günlərdə Prezident İlham Əliyevin şimal-qərb rayonlarına səfəri zamanı vətəndaşlarla keçirilən görüşlərdə də onların problemlərini şəxsən dinləməsi deyilənlərin məntiqi nəticəsidir. Eyni zamanda, səfər zamanı, Prezident İlham Əliyevin Sədrliyi ilə Qaxda keçirilən barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində dövlətimizin başçısı Şəki-Zaqatala bölgəsində kənd təsərrüfatının digər sahələri ilə yanaşı, baramaçılığın inkişaf etdirilməsi üçün də çox yaxşı ənənə və böyük potensialın olduğunu diqqətə çatdırıb. İpəkçiliyin inkişafının təmin edilməsində barama toxumçuluğunun təşkilinin böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev bu sahədə xarici bazarlardan asılılığın azaldılması və aradan götürülməsinin, lazım olan bütün materialların Azərbaycanda yetişdirilməsinin vacibliyini önə çəkib.

### Regionların sosial-iqtisadi inkişafı dövlətin iqtisadi siyasətinin prioritetidir

Qaxda keçirilən respublika müşavirəsində ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi ilə bağlı məsələlərə toxunan Prezident İlham Əliyev bildirib ki, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, xüsusilə, ixracyönümlü sahələrin, o cümlədən, Azərbaycanda kənd təsərrüfatının böyük potensiala malik, strateji əhəmiyyətli, iqtisadi cəhətdən səmərəli, ənənəvi və əməktutumlu istehsal sahələrinin artırılması vacibdir.

Beləliklə, sadalanan rəqəmlər, bir daha onu göstərir ki, yürüdülən siyasət dövlət başçımızın düşünülmüş, məqsədyönlü siyasətidir və bu siyasət regionlarımızın yüksək inkişafını təmin edəcək. Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində bu gün Azərbaycanın regionlarında yol infrastrukturu yenilənib, su, qaz və elektrik enerjisi təminatı xeyli yaxşılaşdırılıb. Bütün bunlar, təbii ki, regionların inkişafına olan diqqətin birbaşa ifadəsidir. Rəqəmlərə diqqət yetirmək kifayətdir. Belə ki, dövlət dəstəyi tədbirləri, o cümlədən, 19 rayonda 40 quşçuluq təsərrüfatına, 13 rayonda 20 heyvandarlıq və 8 rayonda südçülük komplekslərinə, 6 rayonda 7 ət kəsimi və emalı müəssisəsinə 240 milyon manat güzəştli kreditin verilməsi istehsalın artmasına, ət və ət məhsullarının idxalının əhəmiyyətli dərəcədə azalmasına səbəb olub. Bundan əlavə, 20 rayonda 33 intensiv bağçılıq və üzümçülük təsərrüfatına, 9 rayonda 37 istixana kompleksinə və 11 rayonda 16 meyvə-tərəvəz emalı müəssisəsinə 171 milyon manat güzəştli kreditin ayrılması nəticəsində, bu məhsullara daxili tələbat ödənilib və ixrac imkanı artıb. Beləliklə, Prezident İlham Əliyevin istər xarici, istərsə də daxili məsələlərdə nümayiş etdirdiyi siyasi iradə Azərbaycanın daha da qüdrətlənməsinin, ölkənin dinamik inkişafının əsas xəttini təşkil etməklə yanaşı, əhalinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində mütərəqqi siyasətini reallaşdırmış olur. Bu isə, son nəticədə, ölkəmizin daha da inkişaf etməsinə, sosial rifahın yüksək səviyyəyə çatdırılmasına, iqtisadiyyatımızın güclənməsinə geniş imkanlar yaradır.

**RƏFİQƏ KAMALQIZI**

## İqtisadiyyat Nazirliyi: "Bizimsüd" və "İvanovka" məhsullarında saxlama müddəti normalardan artıq göstərilib



İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən aparılmış araşdırmalar zamanı Abşeron rayonu, Mehdiabad qəsəbəsi, Binəqədi-Fatmayı yolu, ev 1-ci kilometr ünvanında fəaliyyət göstərən fiziki şəxs İbrahim Selman tərəfindən istehsal olunan "Bizimsüd" adlı şorun və Abşeron rayonu, Novxanı kəndi, H.Əliyev küçəsi, ev 4 ünvanında fiziki şəxs Aytən Həsənova tərəfindən istehsal olunan "İvanovka" adlı şorun etiketində saxlama müddətinin normativ sənədlərlə müəyyən edilmiş müddətdən artıq göstərildiyi müəyyən olunub. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məhsulların saxlama müddətinin normativ sənədlərlə müəyyən edilmiş müddətdən artıq göstərilməsi saxlama müddəti ötmüş və beləliklə də insanların həyat və sağlamlığı üçün təhlükəli malların istehlakçılar tərəfindən istifadəyə yararlı məhsul kimi istifadəsinə şərait yaratmaqla, insanların həyat və sağlamlığına təhlükə yaradır. Bununla əlaqədar istehsal olunan məhsulların üzərində saxlama müddətinin normativ sənədlərin tələblərinə uyğunlaşdırılması barədə fiziki şəxslər İbrahim Selmana və Aytən Həsənovaya müvafiq göstəriş verilib. İstehlak bazarında nəzarət tədbirləri davam etdirilir.

## SOCAR 2017-2022-ci illər üçün səmt qazının azaldılması Planı hazırlayıb



SOCAR 2017-2022-ci illər üçün səmt qazının azaldılması Planı hazırlayıb. Bu barədə AZƏRTAC-a SOCAR-dan bildirilib. "Son illər ölkəmizdə ekoloji problemlərin həlli dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Buna görə, SOCAR da öz fəaliyyət sahələrində ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin olunması məqsədilə 2017-2022-ci illər üçün səmt qazının azaldılması Planı hazırlayıb. Qlobal iqlim dəyişmələrinə təsirin azaldılması üçün 2014-cü ildə SOCAR Dünya Bankı tərəfindən hazırlanan "2030-cu ilə qədər səmt qazının normal hasilat prosesində yandırılmasının sıfıra endirilməsi" təşəbbüsünə qoşulub və iki dəfə ali mükafata layiq görülüb", - deyə şirkətin məlumatında qeyd edilir.

## Bu ilin 6 ayı ərzində ilkin vərəm hadisələrinin azalması müşahidə edilib




Sanitariya-epidemioloji xidməti və müalicə-profilaktika idarələrinin birgə fəaliyyəti nəticəsində 2017-ci ilin 6 ayı ərzində respublikada idarəolunan xəstəliklərdən poliomielit, difteriya, qızılca, göyöskürək, epidemik parotit və məxmərək xəstəlikləri qeydə alınmayıb. Bu barədə AZƏRTAC-a Səhiyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Hava-damcı infeksiyalarından skarlatina, su çiçəyi hadisələri qeydə alınmış, kəskin respirator virus infeksiyalarının səviyyəsində 11,5 faiz azalma müşahidə olunub, yoluxucu xəstəliklər üzərində epidemioloji nəzarətin gücləndirilməsi məqsədilə kəskin süst ifliclər, B tipli hemofil infeksiya tərəfindən törədilən bakterial meningitlər, pnevmokok və meninqokok infeksiyaları üzərində epidemioloji nəzarət davam etdirilib. 2017-ci ilin 6 ayı ərzində ilkin vərəm hadisələrinin 2016-cı ilin müvafiq dövri ilə müqayisədə 1,3 faiz azalması müşahidə edilib.

# Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin təməlində sosialyönümlülük dayanır

*Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Məlahət İbrahimqızının yap.org.az-a müsahibəsi*

***-Məlahət xanım, Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində həyata keçirilən tədbirlər bütün sahələrdə müsbət göstəricilərin əldə olunmasını şərtləndirib. Eyni zamanda, bu inkişaf sosial siyasət sahəsində də mühüm uğurların qazanılmasını təmin edib. Ümumiyyətlə, ölkəmizdə sosial siyasət sahəsində atılan addımların - görülən işlərin əhəmiyyətinə dair nə deyə bilərsiniz?***

-Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin təməlində sosialyönümlülük dayanır. Təsadüfi deyil ki, iqtisadi inkişaf tempi və modelinə görə dünyanın diqqət mərkəzində olan Azərbaycan həm də sosial dövlət kimi xarakterizə olunur. Bu, o deməkdir ki, dövlət siyasətinin bütün istiqamətlərində və sahələrində mərkəzdə məhz Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində bir daha bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Ona görə sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. Bu il bu məsələlərlə bağlı ciddi addımlar atılmışdır".

Məhz həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin, sosialyönümlü layihələrin qanunauyğun nəticəsi kimi, Azərbaycanda insanların rifah halı daha da yaxşılaşdırılıb, əhalinin məşğulluq səviyyəsi artıb, işsizlik əhəmiyyətli dərəcədə aşağı düşüb. Son 13 ildə əhalinin yüksək sosial təminatının əsas göstəricilərindən biri kimi qəbul edilən yoxsulluğun səviyyəsinin aşağı salınması istiqamətində əldə olunan uğurlar da xüsusi qeyd edilməlidir. Dövlət siyasətinin əsas hədəfi respublikamızda yoxsulluğun tamamilə aradan qaldırılmasıdır. Və bu, özünü çox qısa müddətdə yoxsulluq səviyyesinin 50 faizdən 5 faizədək düsmesində göstərib.

Əvvəlki illərdə olduğu kimi ölkəmizin cari il üçün dövlət büdcəsi də sosialyönümlü olması ilə fərqlənir. Belə ki, Milli Məclisin bir müddət öncə keçirilən növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi barədə" qanun layihəsinin qəbul edilməsi ölkəmizdə həyata keçirilən sosial siyasətin davamlı xarakter daşıdığını göstərir. Milli Məclisdə təsdiqlənən yeni qanun layihəsinə əsasən büdcəyə cəlb ediləcək vəsaitlərin böyük qisminin sırf sosial istiqamətlərə xərclənməsi nəzərdə tutulub.

Ümumiyyətlə, Azərbaycanın davamlı olaraq həyata keçirdiyi geniş məz-



munlu sosial siyasətin əsas xarakterik cəhətlərindən biri də odur ki, ölkəmizdə dövlət qayğısı əhalinin bütün təbəqələrini əhatə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, dövlət qayğısına ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənir. Bu baxımdan, Azərbaycan dövlətinin məcburi köçkünlərin vəziyyətini yaxşılaşdırmaq və məşğulluğunu artırmaq üçün müntəzəm olaraq ciddi tədbirlər görməsini də xüsusi vurğulamaq lazımdır. Ölkə əhalisinin ən həssas hissəsi olan qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə göstərilən dövlət dəstəyi xüsusilə diqqətəlayiqdir. Məlumdur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma yurdlarından qovularaq qaçqın və məcburi köçkünə çevrilən soydaşlarımızın yeni evlər və mənzillərlə təmin olunması istiqamətində əhəmiyyətli tədbirlər görülür. Son olaraq iyunun 27-də qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində Abşeron rayonunun Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimi keçirilib. Mərasimdə çıxışı zamanı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva diqqətə çatdırıb ki, Azərbaycan dövləti öz vətəndaşlarına, xüsusən də böyük çətinliklərlə üzləşən qaçqın və məcburi köçkün ailələrinə hər zaman diqqətlə yanaşır, öz qayğısını göstərir.

Azərbaycanın sosial siyasətinin mahiyyətindən və bu istiqamətdə əldə edilən nailiyyətlərdən bəhs edərkən dayanıqlı iqtisadi inkişafın bu prosesə verdiyi töhfələrdən danışmaq lazımdır. Məlumdur ki, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf siyasətinin Prezident İlham Əliyev tərəfindən müasir çağırışlara və dövrün tələblərinə müvafiq şəkildə uğurla davam etdirilməsi bütün sahələrdə davamlı tərəqqinin əldə olunmasını şərtləndirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardicil islahatlar sayəsində Azərbaycan son 13 ildə özünün iqtisadi müstəqilliyinin təmin olunması yolunda inamlı ve ugurlu addımlar atıb.Dünyanın bir çox inkişaf etmiş ölkələrinin iqtisadi böhranlar və maliyyə problemləri ilə qarşı-qarşıya qaldığı bir şəraitdə ölkəmizdə sosial-iqtisadi sahədə görülən işlər böyük nikbinlik doğurur. Son 13 ildə dünya miqyasında ÜDM istehsalında ən yaxşı göstərici məhz Azərbaycanda qeydə alınıb. Belə ki, 2004-cü ildən bu günə qədər respublikamızda ümumi daxili məhsul istehsalı bir neçə dəfə artıb ki, bu da mühüm göstəricidir. Digər tərəfdən, Azərbaycan regionda iqtisadi cəhətdən ən qüdrətli ölkəyə çevrilib. Əgər 2004-cü ildə Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 50 faizini təşkil edirdisə, hazırda bu nisbət əhəmiyyətli dərəcədə dəyişib. Belə ki, bu gün region iqtisadiyyatının təxminən 75 faiz respublikamızın payına düşür. Təbii ki, bütün bunlar sosial siyasətin uğurlu olmasını da şərtləndirib və qeyd etdiyim kimi, insanların rifah halı daha da yaxşılaşıb, əhalinin məşğulluq səviyyəsi artıb, işsizlik ciddi şəkildə azalıb...

***-Yeri gəlmişkən, işsizliyin aradan qaldırılması və əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticələri nədən ibarətdir?***

-Dayanıqlı iqtisadi inkişaf və uğurlu sosial siyasət nəticəsində respublika üzrə işsizliyin səviyyəsini 5 faizədək aşağı salmaq mümkün olub. Bu, özlüyündə dünya miqyasında ən yaxşı göstəricilərdən biridir. Onu da diqqətə çatdırmaq istəyirəm ki, son illərdə qeyri-neft sənayesinin inkişafı da bu baxımdan böyük əhəmiyyətə malikdir. Son illərdə respublikanın butun resurslarindan ve potensialından səmərəli istifadə olunması və davamlı dövlət dəstəyi sayəsində sənaye quruculuğu sahəsində diqqətəlayiq uğurlara nail olunub. Ümumiyyətlə, son 13 ildə Azərbaycanda sənaye istehsalının 2,7 dəfə artması ölkəmizin reallıqlarını xarakterizə edir. Bəhs olunan dövrdə respublikanın müxtəlif regionlarında 70 mindən çox müəssisə fəaliyyətə başlayıb.

Qeyd etmək lazımdır ki, 2004-cü ildən bəri regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurla həyata keçirilməsi də işsizliyin aradan qaldırılmasına mühüm töhfələr verib. Belə ki, Dövlət proqramlarının icrasına başlanandan indiyədək ölkə üzrə təxminən 1,6 milyon yeni iş yeri yaradılıb ki, onların da böyük əksəriyyəti daimidir və bölgələrin payına düşür. 2014-2018-ci illəri əhatə edən müvafiq Dövlət Proqramının icrasının üçüncü ili ərzində ölkə üzrə ümumilikdə 190 minə yaxın yeni iş yeri açılıb ki, onun da 148 mini daimidir. Onu da qeyd edim ki, 2017-ci ilin birinci yarısında ölkədə 122 min yeni iş yeri

# Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin təməlində sosialyönümlülük dayanır

*Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Məlahət İbrahimqızının yap.org.az-a müsahibəsi*

açılıb ki, onlardan 101 mini daimidir. Bu fakt bir daha təsdiqləyir ki, respublikamızda yeni iş yerlərinin açılması prosesi uğurla davam etdirilir.

Sadalananlarla yanaşı, ölkəmizdə iqtisadi fəallığın artırılması, geniş özəlləşdirmə proqramının hazırlanması və həyata keçirilməsi, həm xarici, həm yerli investorların bu işə cəlb edilməsi və bu kimi qarşıda duran digər vəzifələrin uğurla yerinə yetirilməsi də əhalinin məşğulluğunun artırılması və işsizliyin aradan qaldırılması istiqamətində mühüm əhəmiyyət kəsb edir.

***-Məlahət xanım, ölkəmizdə sosial infrastruktur məsələlərinin həlli də daim diqqət mərkəzindədir. Bu baxımdan əminliklə söyləmək olar ki, Olimpiya İdman komplekslərinin və qurğularının tikintisi, onların ətrafında yaradılan infrastruktur da çoxsaylı sosial məsələlərin həllinə kömək edir. Bu barədə fikirləriniz nədir?***

-Bəli, paytaxt Bakıda və bölgələrdə müasir idman qurğularının yaradılmasına və müvafiq infrastrukturun inkişaf etdirilməsinə dair görülən işlər böyük əhəmiyyətə malikdir. Əlavə olaraq onu deyim ki, ümumiyyətlə, fiziki və mənəvi cəhətdən sağlam nəsil yetişdirmək üçün, ilk növbədə, müasir infrastrukturun yaradılması vacibdir. Son illərdə ölkəmizdə bu istiqamətdə mühüm işlər görülüb. Prezident İlham Əliyevin təşəbbüsü və nəzarəti ilə Azərbaycanın hər bir bölgəsində idman arenalarının, müasir komplekslərin tikilərək yeniyetmələrin, gənclərin ixtiyarına verilməsi ölkəmizdə böyük idmançı ordusunun formalaşmasını təmin edib, gənclərin öz asudə vaxtlarından səmərəli istifadə etməsinə əlverişli şərait yaradılıb.

Ümumiyyətlə, bir-birini əvəzləyən idman yarışları Bakının daha böyükmiqyaslı yarışlara ev sahibliyi etmək imkanlarını artırıb. Ölkəmizin birinci Avropa Oyunları kimi qitənin bir nömrəli idman yarışına, eləcə də IV İslam Həmrəyliyi Oyunlarına uğurla ev sahibliyi etməsinin arxasında da məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsizliyin təmin olunduğu sabit ölkə olması amili dayanır. Ölkəmizdə davamlı dövlət qayğısı sayəsində idmanın kütləvi hal alması, paytaxt Bakıda və bölgələrdə güclü idman infrastrukturu qurulması beynəlxalq idman ictimaiyyətinin də diqqətindən kənarda qalmır. Müxtəlif beynəlxalq idman təşkilatlarının rəhbərləri Azərbaycanda idmanın inkişafına göstərilən dövlət qayğısının, eləcə də Milli Olimpiya Komitəsinin fəaliyyətinin bütün dünyaya nümunə olduğunu bildiriblər. Beynəlxalq idman ictimaiyyətinin Azərbaycandakı idman mühitini yüksək qiymətləndirməsi, əsas etibarilə, müxtəlif mötəbər yarışların respublikamızda keçirilməsi ilə bağlı çıxardıqları qərarlarda ifadə olunur. Təsadüfi deyil ki, son illərdə ölkəmiz bir neçə beynəlxalq turnirə uğurla ev sahibliyi edib.

Onu da diqqətə çatdırmaq istəyirəm ki, dövlət tərəfindən idmana göstərilən xüsusi diqqət və qayğının məntiqi nəticəsidir ki, Azərbaycanın beynəlxalq idman yarışlarında əldə etdiyi göstəricilər ildən-ilə daha da yaxşılaşır. Məhz "Bakı-2015" ilk Avropa Oyunlarının və IV İslam Həmrəyliyi Oyunlarının nəticələri bu qəbildən olan nümunələr sırasındadır. Bütün bunlar həm də Azərbaycanın beynəlxalq nüfuzunun artmasına mühüm töhfələr verir...

***-Yeri gəlmişkən, Azərbaycanın beynəlxalq nüfuzunun artmasına əhəmiyyətli töhfələr verən amillərdən biri ölkəmizin mötəbər beynəlxalq tədbirlərə, o cümlədən mədəniyyət müsabiqələrinə ev sahibliyi etməsidir. Son olaraq ölkəmizdə "Jara-2017" və IX Qəbələ Beynəlxalq Musiqi Festivallarının bu kontekstdə əhəmiyyətinə dair nə söyləmək olar?***

-Əvvəla qeyd edim ki, əslində bu cür tədbirlər xalq diplomatiyasının bir qoludur. Yəni mədəniyyət, idman diplomatiyası kimi bu cür tədbirlər Azərbaycan reallıqlarını, tarixinin və mədəniyyətinin dünyaya tanıdılması baxımından xüsusi önəm daşıyır. Tekcə bu son gunlərdə keçirilən "Jara-2017" və IX Qəbələ Beynəlxalq Musiqi Festivalları Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə, eləcə də mədəniyyət festivallarına, müsabiqələrinə ev sahibliyi etməsi ənənəsinin nə qədər güclü olduğunu göstərir.

Ölkəmiz barəsində yetərli informasiyaya, yaxud Azərbaycan mədəniyyəti ilə bağlı dərin biliklərə malik olmayan xarici ölkə vətəndaşları Qəbələdə olduqdan və festivalda iştirak etdikdən sonra Azərbaycan mədəniyyəti barədə tamamilə yeni və zəngin təəssüratlara sahib olurlar. Həmçinin Azərbaycan musiqi mədəniyyəti ilə tanışlıq ölkəmizin qədim, zəngin, özünəməxsus musiqi irsinə, dəyərlərə sahib olduğunu və bu gün dünya musiqisi ilə əlaqəli surətdə inkişaf etdiyini sübuta yetirir. Əlbəttə, bu mədəniyyəti, incəsənəti, bu tarixi Azərbaycan xalqı yaratmışdır. Belə tədbirlər həm də xalqımızın sahib olduğu dəyərləri, zəngin ənənələrimizi dünyada tanıdır.

Yeri gəlmişkən, Azərbaycanın mədəniyyətinin dünyada təbliği və ölkəmizin beynəlxalq mədəniyyət mərkəzinə çevrilməsi istiqamətində Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Azərbaycanın muğam və aşıq sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsində UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva böyük xidmətlər göstərib. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond ayrı-ayrı ölkələrdə mütəmadi olaraq Azərbaycan mədəniyyətini tanıtmağa yönələn tədbirlərdə milli musiqimizin təbliğini də həyata keçirir. Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı isə ölkə mədəniyyətinin tanıdılması istiqamətində görülən işlərin zirvəsini təşkil edir. Bütün bunlar isə, qeyd etdiyimiz kimi, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına xidmət edir.

***-Məlahət xanım, 2017-ci ilin 17-19 iyul tarixlərində BMT-nin baş qərargahında keçirilən Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə dair ilk Könüllü Milli İcmalı təqdim olundu. Bu barədə fikirlərinizi bilmək istərdik...***

İlk növbədə vurğulamaq lazımdır ki, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının 2015-ci ilin sentyabrın 25-27 tarixlərində keçirilmiş Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş və 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən yeni qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub. Bununla bağlı Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Bunun özü beynəlxalq aləmdə çox mühüm uğur kimi qiymətləndirilərək təqdir olunur.

Qeyd olunduğu kimi, 2017-ci ilin 17-19 iyul tarixlərində BMT-nin baş qərargahında keçirilən Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə dair ilk Könüllü Milli İcmalı təqdim olundu.Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycanın ilk Könüllü Milli İcmalı Azərbaycan Respublikasının Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri cənab Əli Əhmədov tərəfindən təqdim edildi. Təqdimatda Azərbaycanın bu sahədə, daha doğrusu, Dayanıqlı İnkişaf Məqsədləri sahəsində ölkəmiz üçün əsas prioritetler üzrə əldə edilən nailiyyətlər və gələcək perspektivlər haqqında geniş məlumat verildi. Hesabat ətrafında çıxış edənlər Azərbaycanda bu istiqamətdə görülən işləri təqdirəlayiq hesab etdilər, görülən işlərin əhəmiyyətinə toxunaraq bu sahədə Azərbaycan təcrübəsinin öyrənilməsinin vacibliyini diqqətə çatdırdılar. Bu, ölkəmizdə dayanıqlı inkişaf sahəsində görülən işlərin və həyata keçirilən siyasətin əhəmiyyətini, konkret nəticələrini ifadə edir.

## "Azəriqaz" yeddi ayda 37 yaşayış məntəqəsini qazlaşdırıb



"Azəriqaz" İstehsalat Birliyi (İB) tərəfindən bu ilin yanvar-iyul aylarında 37 yaşayış məntəqəsinə təbii qaz verilib. Birlikdən AZƏRTAC-a bildirilib ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədilə "Azəriqaz" tərəfindən təxirə salınmaz işlər həyata keçirilir. Belə ki, əhali istehlakçılarının mənzillərində istismar edilən istismar müddəti başa çatmış sayğaclar yenisi ilə əvəz olunur, respublika ərazisində qaz təchizatı sisteminin yenidən qurulması, kənd və qəsəbələrin qazlaşdırılması həmçinin uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin yenidən mavi yanacaqla təmin edilməsi istiqamətində görülən məqsədyönlü tədbirlər 2017-ci ildə də davam etdirilməkdədir.

İstehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması və yaşayış məntəqələrinin qazlaşdırılması üçün "Azəriqaz" tərəfindən cari ilin yanvar-iyul ayları ərzində 957,8 kilometr yeni qaz kəməri quraşdırılıb, qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün isə 119,3 kilometr qaz kəməri əsaslı təmir olunub. Aparılan tikinti-quraşdırma işləri nəticəsində Goranboy, Ağcabədi, Bərdə, Şəki, Ucar, Quba, Qusar, Oğuz, İmişli, Saatlı, Sabirabad, Lerik, Ağstafa, Xaçmaz və Masallı rayonları üzrə 37 yaşayış məntəqəsi təbii qazla təmin edilib.

## Milli Televiziya və Radio Şurasının iclasında bir sıra qərarlar qəbul olunub

Avqustun 9-da Milli Televiziya və Radio Şurasının (MTRŞ) növbəti iclası keçirilib. Şuradan AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası ərazisində rəqəmsal yayıma keçiddən sonra boşalan tezlik resurslarından səmərəli istifadə olunması ilə bağlı məsələlər müzakirə edilib.

İclasda yüksək keyfiyyətli rəqəmsal (HD) yayımın həyata keçirilməsi üçün "Azad Azərbaycan" Teleradio Kompaniyasına ("ATV" televiziyası) və "Xəzər" televiziyasına müvafiq olaraq 35-ci və 29-cu yayım kanallarının ayrılması barədə qərar qəbul olunub. Həmçinin "TV Texservis" kabel şəbəkəsi yayımçısı tərəfindən TV yayım proqramlarının kodlanmış yayımının həyata keçirilməsi üçün 22-ci TV yayım kanalının onun istifadəsinə verilməsi barədə qərar qəbul edilib. Eyni zamanda, Qubada fəaliyyət göstərən "Xəyal" Müstəqil Televiziya və Radio Şirkətinin adının dəyişdirilməsi ilə əlaqədar ona verilmiş regional televiziya yayımı üçün xüsusi razılığın (lisenziyanın) "Qafqaz" Müstəqil Televiziya və Radio Şirkətinin adına rəsmiləşdirilməsi və "Albax TV" MMC-yə 2011-ci iyulun 27-də kabel şəbəkəsi yayımı üçün 6 il müddətinə verilmiş xüsusi razılığın (lisenziyanın) müddətsiz hesab edilməsi barədə qərarlar qəbul olunub.

## Saltuk Düzyol: TANAP-ın inşasına 10 mindən çox işçi cəlb edilib



Azərbaycan təbii qazını Türkiyəyə və bu ölkədən də Avropaya nəql edəcək Trans-Anadolu qaz boru kəmərinin (TANAP) quru hissəsinin inşası çərçivəsində hazırda tikinti sahələrində təxminən 10 minədək işçi çalışır. Bu barədə AZƏRTAC-a eksklüziv müsahibəsində TANAP-ın baş direktoru Saltuk Düzyol deyib. "Tikinti işləri çərçivəsində hazırda 9 min 581 işçi sahələrdə çalışır. Əlavə işlər və podratçılar da daxil olmaqla TANAP-ın inşasına 10 min 357 nəfər cəlb olunub",- deyə S.Düzyol əlavə edib.

# “Cənub Qaz Dəhlizi” Avropa qitəsinin enerji xəritəsini dəyişəcək



Azərbaycanın hazırda icra etdiyi vacib layihə və birbaşa Avropa maraqlarına yönələn enerji şaxələnməsi layihəsi olan “Cənub Qaz Dəhlizi”dir. Bu, hazırda Avropada icra edilməkdə olan ən böyük infrastruktur layihəsidir. Ümumi dəyəri 40 milyard dollar olan, 7 dövləti və 11 şirkəti özündə birləşdirən nəhəng enerji layihəsi “Cənub Qaz Dəhlizi”, ilk dəfə olaraq, Xəzərin karbohidrogen ehtiyatlarını Avropa bazarlarına daşıyacaq və bütün regionun enerji xəritəsini dəyişəcək.

“Cənub Qaz Dəhlizi”nin əhəmiyyəti ondan ibarətdir ki, ona aid olan boru kəmərləri sistemi elə layihələndirilib ki, gələcəkdə mümkün əlavə qaz həcmlərinin təchiz edilə bilməsi üçün ötürücülük gücü öz ilkin ötürücülük qabiliyyətinin iki misli qədər artırıla bilər. Bu isə, gələcəkdə digər mənbələrin də, “Cənub Qaz Dəhlizi”nə qoşulmasına imkan verməklə layihənin əhəmiyyətini daha da artırır. Lakin ilkin mərhələdə layihə “Şahdəniz” yatağının ikinci fazasının işlənilməsi çərçivəsində hasil edilən təbii qazın nəqlini nəzərdə tutur. ABŞ-ın Alyaska ştatında yerləşən “Prudo Bey” neft yatağından sonra BP-nin operatoru olduğu ikinci ən böyük yataq olan “Şahdəniz” dünyanın ən böyük qaz-kondensat yataqlarından biridir.

Məhz bütün bunları nəzərə alaraq, Azərbaycan milyardlarla dollar sərmayə qoyur ki, bu dəhliz tezliklə reallaşsın. Bu mənada, layihənin birinci mərhələsi gələn il, ikinci və sonuncu mərhələsi isə 2020-ci ildə başa çatacaq. Bununla belə, ümumilikdə layihənin qrafik üzrə həyata keçirilməsinə maneələr də ortaya çıxıb. Elə “Cənub Qaz Dəhlizi”nin 4 seqmentindən biri olan TAP-ın icrasının nəzərdə tutulan qrafikdən 3 faiz geri qalmasının yolverilməzliyinə toxunan ölkə başçısı bunun layihənin həyata keçirilməsinə təsirinin olmayacağını bəyan etmişdi: “Çünki Azərbaycan ictimaiyyəti bilir ki, TAP layihəsini əngəlləmək üçün indi böyük səylər göstərilir, qruplar təşkil olunur, ekoloji məsələlər bəhanə kimi ortalığa atılır. Bizdə olan məlumata görə, bunun arxasında böyük pullar dayanır. Yəni o qruplar süni şəkildə, heç bir əsası olmadan təşkil edilir. Amma aydındır nə üçün... Əlbəttə, bu layihəni dayandırmaq, yaxud da ki, ləngitmək üçün. Bütün bunlara baxmayaraq, TAP layihəsinin icrası plandan cəmi 3 faiz geridədir. Ona görə, əminəm ki, bu layihənin icrasında da heç bir problem olmayacaq”.




Qeyd edək ki, bu məsələ Bakı keçirilən “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin üçüncü toplantısının da əsas müzakirə mövzusu olub. Həmçinin, ötən ay TAP-ın İtaliya üzrə meneceri Mikele Mario Elia ətraf mühit və iqlim məsələləri üzrə ekspertlərin iclasında da bu barədə danışarkən, layihənin tikintisi zamanı müasir texnologiyaların və standartların tətbiq olunduğunu, bu texnologiya və standartlardan mövcud qaz kəmərləri şəbəkəsinin tikintisində də istifadə edildiyini diqqətə çatdırıb. Bununla belə, dövlətimizin başçısı Riqada keçirilən biznes forumda “Cənub Qaz Dəhlizi”nin əsas mahiyyətindən bəhs edərkən, bir daha qeyd edib ki, bu, Avropa İttifaqı bazarını yeni marşrutla və yeni mənbədən Azərbaycan qazı ilə təchiz edəcək layihədir: “Bu, həqiqi şaxələnmədir. Çünki enerjinin şaxələnməsi təkcə marşrutların şaxələnməsi demək deyil, bu, əsasən, mənbələrin şaxələnməsi deməkdir. Bizim layihədə, bu, məhz belədir. Enerji təhlükəsizliyi, bizim hamımızın bildiyi kimi, hər bir ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Buna görə də, Azərbaycanda icra etdiyimiz bir çox layihələr sərhədlərimizin hüdudlarından çox kənara uzanır”.

Bir sözlə, bu gün Avropanın təbii qaza olan tələbatı ildən-ilə artmaqdadır. Bu isə, bir daha onu deməyə əsas verir ki, enerjinin şaxələnməsi təkcə marşrutların şaxələnməsi deyil, əsasən, mənbələrin şaxələnməsi deməkdir. Bu prosesdə isə ən etibarlı və təhlükəsiz mənbə Azərbaycandır.

***“Səs” Analitik Qrupu***

## TAP-ın Yunanıstan və Albaniya marşrutunun üçdəikisi təmizlənib



“Trans-Adriatik” (TAP) qaz boru kəmərinin Yunanıstan və Albaniya marşrutunun üçdəikisi təmizlənib. AZƏRTAC xəbər verir ki, bu barədə TAP-ın “twitter” səhifəsində məlumat verilir. Bildirilir ki, TAP-ın 765 kilometrlik Yunanıstan və Albaniya hissəsində marşrut boyunca 500 kilometrdən çox sahə artıq təmizlənib. Boru kəməri üçün xəndəyin qazılması, eləcə də boruların qaynağı davam etdirilir.

Xatırladaq ki, TAP-ın təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Boru kəmərinin tikintisi üzrə işlərin təxminən 47 faizi icra olunub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. “Şahdəniz” konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır. Bu ilin ilk rübündə layihə üzrə kompressor stansiyalarının tikintisinə də başlanılacaq. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

## “Zaman və məkan” adlı müsabiqə keçiriləcək

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı “Zaman və məkan” adlı qısametrajlı sənədli filmlər üçün ssenari müsabiqəsi elan edib. İttifaqın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yaşı 35-ə qədər olan bütün şəxslər ssenari müsabiqəsində iştirak edə bilərlər..

Şərtlərə görə hər bir müəllif 3 ssenaridən artıq təqdim edə bilməz. Birinci yerin sahibinə 1500, ikinciyə 1000, üçüncüyə isə 500 manat məbləğində pul mükafatı veriləcək. Ssenari müsabiqəsinin keçirilməsində məqsəd kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirməkdir. Ssenarilər oktyabrın 31-nə qədər təqdim edilməlidir

## Yarım ildə tikintidə çalışanların əməkhaqqı 807,8 manata çatıb



Bu ilin yanvar-iyun aylarında tikinti sahəsində çalışan muzdlu işçilərin orta siyahı sayı 97,8 min nəfər təşkil edib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, onların 48,6 min nəfəri binaların tikintisində, 24,6 min nəfəri mülki təyinatlı inşaat işlərində, 24,5 min nəfəri isə ixtisaslaşdırılmış tikinti işlərində çalışıb. İşçilərin 28,2 faizi dövlət, 71,8 faizi isə qeyri-dövlət tikinti müəssisələrində məşğul olublar. Tikinti sahəsində işləyənlərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,5 faiz artaraq 807,8 manata çatıb.

Qeyri-dövlət sektorunda işçilərin orta aylıq nominal əməkhaqqı 927,6 manat, dövlət sektorunda isə 521,3 manat olub. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə binaların tikintisində işləyənlərin orta aylıq nominal əməkhaqqı 7,5 faiz, mülki təyinatlı inşaat işlərində çalışanların isə 8,8 faiz artıb.

## Özbəkistan mobil cihazların IMEI kodlar əsasında qeydiyyata alınmasında Azərbaycan təcrübəsini öyrənmək istəyir

Özbəkistan mobil cihazların IMEI kodlar əsasında qeydiyyata alınması sahəsində Azərbaycan təcrübəsini öyrənmək istəyir.

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə avqustun 9-da komitədə Özbəkistan Respublikasının Gömrük Xidmətinin nümayəndə heyəti ilə görüş zamanı danışılıb. Görüşdə iki ölkə arasında bütün sahələrdə sıx əməkdaşlıq əlaqələrinin mövcud olduğu və hər iki ölkənin gömrük orqanlarının bu münasibətlərin daha da inkişaf etdirilməsinə öz töhfəsini verdiyi diqqətə çatdırılıb.

Bildirilib ki, yaxın vaxtlarda Özbəkistanda mobil cihazların IMEI kodlar əsasında qeydiyyata alınması prosesi həyata keçiriləcək və səfərin məqsədi də bu sahədə mühüm addımlar ataraq təqdirəlayiq nailiyyətlər əldə edən Azərbaycan təcrübəsini öyrənməkdir. Nümayəndə heyətinə texniki və təşkilati-hüquqi məsələlər, bu sahəyə cavabdeh olan müvafiq qurumlar arasında əməkdaşlığın təşkili barədə ətraflı məlumat verilib.

Daha sonra Dövlət Gömrük Komitəsinin “Hədəf” mərkəzi ilə tanış olan nümayəndə heyətinə Azərbaycan gömrüyünün Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS), “Mal və nəqliyyat vasitələrinin buraxılış vaxtının ölçülməsi” (TRS), “Bir pəncərə”, “Yaşıl dəhliz” və digər innovasiya layihələri barədə məlumat verilib, nümayəndə heyətini maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Erməni faşistlərinin uşaq qatili olmaq ənənəsi

*Yaxud damarlarında terrorçuluq hüceyrələri axan "xalq"*

***Erməni faşizmi ənənələrinin müasir dövrümüzdə də davam etməsi bir faktoru sübuta yetirir: bu "xalqın" damarlarında terrorçuluq hüceyrələri axır və nəticəsi də göz önündədir. Zaman-zaman Azərbaycanda, Türkiyədə və dünyanın müxtəlif ölkələrində silsilə terror aktları törətmiş erməni terrorçu qruplaşmalarının məqsədləri birdir - "Dənizdən-dənizə böyük Ermənistan dövləti" xəyallarını gerçəkləşdirməkdən ötrü, hətta özlərinə düşmən olaraq elan etdikləri xalqların uşaqlarına belə rəhm etməmək. Bu, bir erməni xislətinin bariz və dəfələrlə sübuta yetirilmiş reallığıdır. Əgər biz bu günə qədər erməni faşistlərinin törətdikləri terror cinayətlərində təkcə qətlə yetirilmiş uşaqların sayını dəqiqləşdirsək, həmin rəqəmdən dəhşətə gələrik. Çünki bu rəqəm minlərlədir...***





Azərbaycanın ərazi bütövlüyünə qarşı qaldırılan torpaq iddialarının ardınca erməni terrorçularının uşaq qatili olmaq ənənələri davam etdi. İstər 1992-ci ilin Xocalı soyqırımında, istərsə də sonrakı dövrlərdə ortaya çıxan dəhşətli faktlar tükürpədicidir. Nə qədər ağır olsa da, biz, bu faktları hər dəfə, əlimizə düşən hər bir imkandan yararlanaraq, ictimailəşdirməli, gələcək nəsillərimizə çatdırmalıyıq. Hətta əzbərdən bilsək belə, təkrarlamalıyıq ki, milli unutqanlığımız baş verməsin!

## Dəyişməyən qəddarlıq, dəyişməyən qətl üsulları və dəyişməyən erməni terroru!

Məsələn, vəhşi erməni yazarı Zori Balayanın xatirələrini heç vaxt unutmamalıyıq. Belə ki, babalarının yırtıcı təbiətini özündə yaşadan "ASALA" erməni terror təşkilatının ideoloqlarından hesab edilən yazıçı Zori Balayan Qarabağda günahsız körpələrimizin işgəncə ilə ölümünün, bilavasitə iştirakçısı olaraq, əli qanlı cani şahidliyindən fəxrlə yazır. SİTAT: "Biz Xaçaturla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək, dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq".

Bu əsnada, erməni terrorçularına münasibətdə biz onların, həqiqətən də, quduz it, quduz köpək olduqlarını deyə bilərik. Atalarımız əbəs yerə deməyiblər ki, "Suya düşən itlə yağışa düşən erməni arasında fərq yoxdur".

Digər bir erməni - Livanda yaşayan yazıçı-jurnalist David Xerdiyan da vəhşilərin törətdikləri Xocalı cəhənnəmindən fəxrlə bəhs edib: "Səhərin soyuğunda biz Daşbulaq yaxınlığındakı bataqlıqdan keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən ölülərin üstünə getmək istəmədim. Bunu görən polkovnik-leytnant Ohanyan (Ermənistanın sabiq müdafiə naziri Seuran Ohanyan) mənə işarə etdi ki, qorxmayın. Mən ayağımı 9-11 yaşlı qız meyidinin sinəsinə basıb addımlamağa başladım. Mənim ayaqlarım və şalvarım qan içində idi və mən beləcə, 1200 meyidin üstündən keçdim".

"Martın 2-də "Qaflan" erməni qrupu (meyitləri yandırmaqla məşğul olurdu) 2000-ə yaxın alçaq monqolun (türklərin) cəsədini toplayıb ayrı-ayrı hissələrlə Xocalının 1 km-liyində yandırdıq. Axırıncı yük maşınında mən başından və qollarından yaralanmış təxminən 10 yaşlı bir qız uşağını gördüm. Diqqətlə baxanda, gördüm ki, o, yavaş-yavaş nəfəs alır. Soyuq, aclıq və ağır yaralanmasına baxmayaraq, o, hələ də sağ idi. Ölümlə mübarizə aparan bu uşağın gözlərini mən heç vaxt yaddan çıxarmayacam. Sonra Tiqranyan familiyalı bir əsgər onun qulaqlarından tutub, artıq üzərinə mazut tökülmüş cəsədlərin içərisinə atdı. Daha sonra onları yandırdılar. Tonqaldan ağlamaq və imdad səsləri gəlirdi".

Beləliklə, burada erməni vəhşiliyinin izaha ehtiyacının olmadığını deyə bilərik. Bir xalqın ki, Zori Balayan, David Xerdiyan kimi, günahsız körpələrin meytləri üzərindən "erməni qüruru" ilə addımlayan, onların meytlərindən cəhənnəm tonqalları qalayan ziyalıları var, o xalq bədbəxt xalqdır, tarixin sakit ölümünə öz əlləri ilə məhkum edilmiş xalqdır!

## 4 yaşlı Malik və Elvin qardaşları, 13 yaşlı Aygün, 9 yaşlı Fariz, 18 aylıq körpə Zəhra və...

Spitakda baş verən dağıdıcı zəlzələ ərəfəsi və ondan sonrakı günlərdə qansız, qəddar ermənilərin ətrafda olan Azərbaycan əhalisinin yaşadıqları bir kəndin körpələrinə, azyaşlı uşaqlarına tutduqları divan Xocalıda cəhənnəm oduna atılmış həmyaşıdlarının taleyi qədər ağır, dəhşətli və faciəli oldu. Uşaq qatilləri olan ermənilər yüzə yaxın balamızı 25-30 metrəlik böyük diametrli borunun içərisinə doldurub, hər iki tərəfdən ağzını qaynaqlayaraq, borunun hər tərəfinə benzin qarışdırılmış mazut töküb od vuraraq, xüsusi qəddarlıqla qətlə yetirmişdirlər. Halbuki azərbaycanlılar bu günlərdə Ermənistanda baş vermiş zəlzələ fəsadlarının aradan qaldırılması üçün yardıma tələsmiş, lakin ermənilər bizim təyyarəmizi vuraraq, soydaşlarımızı qətlə yetirmişdilər. Bundan artıq qeyri-insani davranış ola bilərmi? Bunu erməni terror təfəkkürlü "insanlar-dan" başqa kimsə edə bilərdimi? Heç faşist Almaniyası dövründə törədilən qəddarlıqlar bu qədər dəhşətli olmamışdı...

19 yanvar 1990-cı ildə Şərur rayonunu o vaxtkı inzibati ərazisi sayılan Sədərək kəndinin sakinləri olan iki qardaş 1986-cı il təvəllüdlü 4 yaşlı Maliki və 1984-cü il təvəllüdlü 6 yaşlı Elvini də uşaq qatili olan ermənilər top atəşi ilə qətlə yetirdilər.

Erməni qatillərin kəndlərimizdən keçən çaylara axıtdıqları uşaq oyuncaqlarına yerləşdirdikləri partlayıcıları axıtmaqla Tovuz rayonu sakini 13 yaşlı Şahmalıyeva Aygün Zirəddin qızını, Ağdam rayon sakini 9 yaşlı Farizi snayperlə qətlə yetirməkdən, həyətdə oynayan uşaqlarımızı güllə ilə dəlik-deşik etməkdən ürəkləri soyumadı. Körpə balalarımızın qanı hələ qurumadan uşaq qatili olan ermənilər bu il iyulun 4 də yenicə dil açan, "ata-ana" deyən 18 aylıq məsum körpə Zəhra balamıza bomba atdılar, onu ana məhəbbətindən məhrum etdilər və bu mənfir ənənə davam edir. Bir neçə gün öncə, 2004-cü il təvəllüdlü Yusifov Ramin öz həyətlərində olarkən, həyətə mərmi düşüb. Mərminin qəlpələri Yusifov Ramini ağır şəkildə yaralayıb. Bədənindən çoxsaylı qəlpə yarası alan Ramin Yusifov dərhal təcili-tibbi yardım maşını ilə xəstəxanaya aparılıb. Çoxsaylı qəlpə yarası alan yeniyetmə həkimlər tərəfindən əməliyyat olunub və onun vəziyyətinin orta-ağır olduğu bildirilir.

Söz yox ki, erməni faşizminin təməlli şəkildə aradan qaldırılması üçün fürsət, məhz Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmayacağı zaman istifadə oluna bilər. Güclü və qüdrətli Azərbaycan Ordusu bu vəhşiliyin qarşısını mütləq alacaq, çox qalmayıb...

<u>Rövşən NURƏDDİNOĞLU</u>

***P.S. Əgər erməni qatillərin böyük gələcəyimiz olan körpələrimizin və azyaşlı balalarımızın taleyinə zaman-zaman yazdıqları bu qanlı tarixi unutsaq, gələcək nəsillərimiz bizi bağışlamayacaq!***

# Havanın temperaturu düşəcək, yağış yağacaq...

***Azərbaycanda avqustun 10-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 25-28°, gündüz 32-37° isti, Bakıda gecə 26-28°, gündüz 34-36° isti olacağı gözlənilir.***



Atmosfer təzyiqi 756 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 27-28°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 28-29°, Türkan, Hövsan, Sahil, Şıxda 29-30° isti olacaq.

Sinoptiklərin xəbərdarlığına görə, bir neçə gün davam edən isti hava şəraitindən sonra avqustun 10-11-də Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyinin arabir güclənəcəyi, hərarətin ötən günlərlə müqayisədə tədricən 3-5° aşağı enəcəyi gözlənilir.

Tibbi meteoroloji proqnoza əsasən, avqustun 10-11-də Abşeron yarımadasında arabir güclənən xəzri küləyi fonunda temperaturun ötən günlərlə müqayisədə 3-5° aşağı enməsi müsbət amildir.

Azərbaycanın rayonlarında hava şəraitinin yağmursuz keçəcəyi, lakin səhər və gündüz bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı, yağıntının Böyük Qafqazın ayrı-ayrı yerlərində leysan xarakterli olacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-40° isti, dağlarda gecə 17-22°, gündüz 27-32° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz keçəcək. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 27-32° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 34-39° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava yağmursuz keçəcək. Lakin səhər və gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 32-36° isti, dağlarda gecə 17-22°, gündüz 26-31° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-40° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Lakin səhər və gündüz bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək, gündüz arabir güclənəcək.

Havanın temperaturunun gecə 23-25°, gündüz 34-39° isti, dağlarda gecə 20-23°, gündüz 30-34° isti olacağı gözlənilir. Avqustun 10-u səhərdən 11-i gündüzədək bəzi rayonlarda şimşək çaxacağı, arabir yağış yağacağı, yağıntının Böyük Qafqazın ayrı-ayrı yerlərində leysan xarakterli olacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 3-5° aşağı enəcək. Böyük Qafqazın bəzi dağ çaylarında sululuğun artacağı ehtimal olunur.

**AXCP sədri Əli Kərimlinin inhisarında saxladığı və avtoritar şəkildə idarə etdiyi təşkilatı daxilində zaman-zaman narazıların qiyam etməsi adi hala çevrilib. Belə ki, Ə.Kərimlinin yalnız şəxsi mənfəətlərinə və fərdi dividendlərinə xidmət edərək, cəbhəçiləri özünə nökər kimi görməsi həmin insanların səbrlərini daşdırır və onlar nəticədə, ən sərt ifadələrlə sədrlərini ittiham atəşinə tuturlar. Əslində, Ə.Kərimlinin timsalında baş verən bir çox bənzər hadisələr bu cür hadisələrin yaranmasına kifayət qədər şərait yaradır. Sirr deyil ki, vaxtilə Ə.Kərimlinin toruna düşərək həbs edilən bir çox cəbhəçilər sonda nə qədər səhvə yol verdiklərini anlasalar da, gec olduğunun fərqinə varıblar. Bir çoxları öz səhvlərini təkrarlamamaq üçün dərhal AXCP sıralarını tərk edərək, xalqın inam bəslədiyi hakimiyyətin yürütdüyü siyasəti dəstəklədiklərini bəyan ediblər. Bu kimi halları sübuta yetirən faktlar kifayət qədər çoxdur.**

# AXCP üzvü Əli Kərimliyə "od püskürüb", onu yerdən-yerə "vurdu"

*Paşa Umudov: "Uzun illərdir, sədaqətlə partiya ideyalarına xidmət etsəm də, son dövrlər təşkilat daxilində baş verənlər məni və ətrafımda olan bir çox cəbhəçilərin Əli Kərimlini oyunbaz və dələduz şəxs kimi tanımağa vadar etmişdir"*

## Həbs edilənlərin ailələri uşaqlarının boğazlarından kəsib Əli Kərimliyə üzvlük haqqı ödəyirlər!

Bu arada daha bir cəbhəçi - partiyanın Sabirabad şöbəsinin üzvü Paşa Umudov öz sədrinə qarşı qiyam qaldırıb və Ə.Kərimlinin, eləcə də, ailəsinin komfort həyat tərzi sürdüyünü deyərək, sıravi cəbhəçilərə yuxarıdan aşağı baxdığını bildirib. Onun sözlərinə görə, Kərimli sıravilərə öz nökərləri kimi baxır və feodal üslübda onları şəxsi məqsədləri istiqamətində istismar etməklə məşğul olur. "Uzun illərdir, sədaqətlə partiya ideyalarına xidmət etsəm də, son dövrlər təşkilat daxilində baş verənlər məni və ətrafımda olan bir çox cəbhəçilərin Ə.Kərimlini oyunbaz və dələduz şəxs kimi tanımağa vadar etmişdir"- deyə yazılı bəyanat yayan cəbhəçiyə görə, 11 nəfər AXCP üzvü onun siyasətinin qurbanı olaraq həbsdə yatır, hətta ailələri uşaqlarının boğazlarından kəsərək, partiyaya üzvlük haqqı ödəyir, ancaq Ə.Kərimli öz ailəsi ilə birgə kef edir, arvad-uşaqlarını Londona göndərir. Belə ki, P.Umudov Rusiyada yaşadığı qohumlarının dəvəti ilə hava limanında Ə.Kərimlinin Londona uçan ailəsini gördükdən sonra sözügedən yazılı bəyanatı ictimailəşdirmək qərarına gəlib.

## "Yalan danışmadığımı fotoşəkillərdə özünüz də görə bilərsiniz"

"Hava limanında rastlaşdığım mənzərə Ə.Kərimlinin, sadəcə, bir partiya sədri deyil, böyük dələduz, hoqqabaz və sehrbaz olmasını, natiqlik, təşkilatçılıq qabiliyyətini partiya ideyaları, xalqın maraqları üçün deyil, özünün zənginləşməsi üçün istifadə etdiyi barədə yaranan fikirlər məni rahat buraxmadı. Bəli, son vaxtlaradək partiya üzvləri ona inanır, müqəddəs bir insan kimi baxırdılar"- deyə qeyd edən narazı cəbhəçiyə görə, 20 ildir təkrarlanan eyni ritorika ("bu rejim getməlidir", "artıq biz hakimiyyətə gəlmək üzrəyik") həbsdə olan cəbhəçilərin ailələrinə bayramdan-bayrama 300 manat maddi yardım göndərməklə başa çatır. O bildirir ki, həbsdə olanların ailə üzvlərinə 300 manat yardım göndərməsi, əslində, hər şeyin bir məqsədə - Ə.Kərimlinin və ailəsinin komfortlu yaşayışının təminatına yönəldiyinin göstəricisidir. SİTAT: "Ə.Kərimli bu şəxslərə edəcəyi 300 manatlıq yardımdan və bayağı, düşük şəkil aksiyalarından o tərəfə keçən də deyil. Təsəvvür edin ki, 10 minlərlə cəbhəçi barədə danışdığımız bir vaxtda, küçələrə çıxaraq bu rejimin devrilməsini, əqidə yoldaşlarımızın azadlığa buraxılmasını tələb etmək əvəzinə, çayxanalarda yığışıb siyasi məhbusların plakatları ilə şəkil çəkdiririk və sonradan onu videoçarx kimi sosial şəbəkələrdə yayırıq. Görəsən, Ə.Kərimli tutulsaydı Gözəl Bayramlı, Seymur Həzi, Fuad Qəhrəmanlı, Faiq Əmirli və digərləri onu beləcə ucuzvari yola verərdilərmi? Ə.Kərimli həbs edilsəydi, onun əqidə yoldaşları, onların ailə üzvləri Londonda və digər bahalı şəhərlərdə kef çəkərdilərmi? Heç inanmıram".



## "Zatən bu şəxsin 20 ildir söylədiyi "hakimiyyətə gələcəyik" kimi nağıllarına heç özü belə inanmır (amma bizi inandırmağı bacarmışdı) və övladının gələcəyini sığortalamaq üçün onu... İngiltərə vətəndaşı edir!!"

Narazı cəbhəçi bu yalanın 20 ildir davam etdiyini bildirir və gün kimi aydın olduğunu yazaraq, qeyd edir ki, onun Azərbaycanda hakimiyyətə gəlmək ümidləri yoxdur və onları, sadəcə, avam yerinə qoyaraq "Yurd" brendi altında yaratdığı şirkətdə pulsuz olaraq istismar edir: "Belə olmasaydı, o, kiçik oğlunu dünyaya gətirmək üçün, bir neçə il əvvəl, həyat yoldaşını Londona göndərməzdi. Soruşarsınız ki, burada nə var ki? Məntiq isə sadədir. Azərbaycanın Prezidenti olmağa hazırlaşan və ümidlərini bu ölkə ilə bağlayan şəxs İngiltərədə dünyaya gələn övladına avtomatik olaraq, həmin ölkənin vətəndaşlığını qazandırmışdır. Həmişə praqmatik düşünən Ə.Kərimlinin bu şahmat gedişinin səbəblərini başa düşmək üçün vunderkind olmaq gərək deyil. Zatən, bu şəxsin 20 ildir ki, söylədiyi "hakimiyyətə gələcəyik" kimi nağıllarına heç özü belə inanmır (amma bizi inandırmağa bacarmışdı) və övladının gələcəyini sığortalamaq üçün onu... İngiltərə vətəndaşı edir!!"

Göründüyü kimi, Ə.Kərimlinin qaçacaq yeri də yoxdur və ortaya qoyulan faktlar özü-özlüyündə hər şeyi tam çılpaqlığı ilə nümayiş etdirir. Əbəs yerə deyil ki, qiyamçı və narazı AXCP üzvü bir sıra riyazi hesablamalarla Ə.Kərimlinin bütün planlarını faş edir, bunu arqumentlərlə əsaslandırır. SİTAT: "Adi məktəblinin hesablaya biləcəyi və faktlara əsaslanan rəqəmlərə baxın. "Yurd" sədrinin hər iki övladı 11 il Bakı Oksford Məktəbində (1 illik təhsil haqqı 11 min manatdır) oxuyublar. Beləliklə, hər iki uşağa 242 min manat vəsait xərclənib. Hər iki uşaq dünyanın ən bahalı təhsil sistemlərindən birinə malik Böyük Britaniyada oxuyublar və yaşayıblar. Londonda ortabab ali təhsilin bir ili 15 min funt sterlinqdən (hazırkı kursla 33 min manat) aşağı deyil. Hər iki uşağın 5 illik təhsil xərci ən aşağısı 150 min funt sterlinq (hazırkı kursla 332 min manat) edir. London şəhərində ən ucuz mənzil kirayəsi 700 funt sterlinq (1 500 manat), 1 nəfər üçün minimum aylıq yaşayış xərci isə 650 (1400 manat) funt sterlinqdir. Beləliklə, 5 il ərzində 2 nəfər üçün kirayə haqqı 42 000 funt (93 000 manat), 2 nəfərin minimum yaşayış xərci isə 78 000 funt (172 min manat) edir. Hələ bura Bakı-London aviareyslərinə ayrılan vəsait, tətil, restoran, əyləncə və digər xərclər barədə rəqəmlər yazılmayıb. Adi hesablamalar göstərir ki, Dələduz Əli bəyin son 15 ildə görünən xərcləri 242 min manat + 270 min funt sterlinqdən (hazırkı kursla 600 min manat) çoxdur ki, az deyil. Gözə görsənməyən xərcləri də nəzərə alsaq, həmin rəqəmləri (242 min manat + 270 min funt sterlinq) 2, bəlkə də 3 əmsalına vurmağımız tamamilə ədalətli olardı. Qarşımızda məmur-oliqarxların həyatına bənzər və onlardan geri qalmayan bir mənzərə canlanır. Heç nə olmaz, Allah Fuadın, Faiqin, Gözəlin, Seymurun, Asifin və digərlərinin canını sağ eləsin, onlar yatar, Əli bəy isə qazanar".

## "Sonuncu dəfə mətbuata verdiyiniz açıqlamada sürücünüzün təmənnasız xidmət göstərməsi barədə dediklərinizə hamımız sizin tərəfinizdən edilmiş bir zarafat, camaatla növbəti məzələnmə şousu kimi yanaşmışdıq"

Etirazçı cəbhəçi ortaya çıxardığı danılmaz faktlardan sonra AXCP sədrinin yenidən ortaya düşüb "hakimiyyətin ona qarşı plan işlətdiyini" iddia edəcək, hətta insanları növbəti dəfə özünə inandırmağa cəhdlər göstərəcək, ancaq bu dəfə ona kimsə inanmayacaq. SİTAT: "Düzdür, bu məktubu oxuyan Ə.Kərimli həmişə öyrəşdiyimiz kimi, ya çıxıb öz sehrbaz bacarığını göstərəcək və camaatı avam yerinə qoyaraq, nağıl söyləməyə başlayacaq, ya da, ümumiyyətlə, heç nə olmamış kimi davranacaqdır. Lakin indidən bir şeyi xatırladaq ki, Əli bəy, sizin 2000-ci ildən etibarən söylədiyiniz "mənə dostlarım kömək edir, onların adlarını çəkə bilmərəm" kimi nağıllarınıza heç kəs inanmır. Çünki sonuncu dəfə mətbuata verdiyiniz açıqlamada sürücünüzün təmənnasız xidmət göstərməsi barədə dediklərinizə hamımız sizin tərəfinizdən edilmiş bir zarafat, camaatla növbəti məzələnmə şousu kimi yanaşmışdıq. Nə edək? Hər ay ona 350 manat verməyiniz hər bir cəbhəçi bilir".

Nəticə olaraq, bu faktların ortaya çıxarılması yaxın günlərdə AXCP sıralarında yeni narazılıq dalğasının qalxacağından xəbər verir. Çünki illər uzunu səslərini boğaraq birtəhər şəkildə susmağa məcbur olanlar bu dəfə susmayacaqlarını bəyan edirlər. Hətta AXCP sıralarından çıxarılsalar və sosial şəbəkələrdə Ə.Kərimlinin "söyüş qrupu" vasitəsi ilə həqarətlərə, təhqirlərə məruz qalsalar belə, yenə də öz sözlərini deyəcəklər. Onun barəsində əsl gerçəkliyi yayıb, üzündəki artistlik maskasını birdəfəlik yırtacaqlar.

**Rövşən NURƏDDİNOĞLU**

## İlin birinci yarısında 188 qida zəhərlənməsi hadisəsi baş verib

Bu ilin ilk 6 ayında 188 qida zəhərlənməsi hadisəsi baş verib və həmin hadisələr nəticəsində 285, baş verən 11 botulizm hadisəsində 21 zərərçəkən olub. Bu barədə AZƏRTAC-a Səhiyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Həmin müddətdə orqanoleptik və fiziki-kimyəvi göstəricilərinə görə 1637, mikrobioloji göstəricilərinə görə 1648, radioloji göstəricilərinə görə 748, toksikoloji göstəricilərə görə 714 yeyinti məhsulları nümunələri laboratoriya müayinələrinə cəlb edilib. Müayinələrə əsasən mikrobioloji göstəricilərə görə 122, toksikoloji göstəricilərə görə 10 normadan kənara çıxma halları müəyyən olunub.

Respublika Gigiyena və Epidemiologiya Mərkəzi bu ilin 6 ayı ərzində Nəsimi, Sabunçu, Binəqədi, Nərimanov, Yasamal, Səbail, Suraxanı və Xətai rayonlarının təhsil müəssisələrinin rəhbər və tibb işçilərindən ibarət 340 nəfərin iştirakı ilə 18 seminar-müşavirələrin keçirilib. Seminar-müşavirələrdə uşaq və yeniyetmələrin sağlamlıq göstəriciləri, fiziki və əqli inkişafı, düzgün və rasional qidalanmanın təşkili, ərzaq məhsullarının texnoloji emalının, onların saxlanılmasının və epidemioloji təhlükəsizliyinin təmin edilməsinə dair sanitar-gigiyena və şəxsi gigiyena qaydaları barəsində ətraflı məlumatlar verilib.

Ölkəmizdə uşaq və yeniyetmələr arasında şəxsi gigiyenaya dair bacarıqların artırılması sahəsində Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin hazırladığı "Əllərin gigiyenası" mövzusunda təbliğat işlərinin aparılması təşkil edilib və həmin təbliğat 478, 5 min məktəblini əhatə edib.

# Ermənistan çıxılmaz vəziyyətdə:
## Qərb, yoxsa Rusiya?

***Son vaxtlar Ermənistanda Rusiyanın asılılığından qurtularaq, Qərbə inteqrasiya yolunu tutması ətrafında səslənən fikirlər, istər ölkə rəhbərliyində, istərsə də müxtəlif dairələrdə ən çox mübahisə predmetli mövzuya çevrilib. ABŞ-ın dövlət rəsmilərinin Rusiyaya qarşı tətbiq etdikləri sanksiyalardan təlaş keçirən Ermənistan prezidenti Serj Sarkisyan "yeni ideyalar" axtarışına çıxaraq, İran qazının ölkəsi üzərindən Avropaya çatdırılması planını irəli sürməklə, Qərb qarşısında nüfuz formalaşdırmağa çalışıb. Lakin bu, Sarkisyanın xam xəyalı olsa da, Avropanın siyasi dairələri tərəfindən, ciddi qəbul edilmir. Səbəb də Ermənistanın Rusiyanın vassalı olaraq, öz vədinə xilaf çıxmayacağını kimsəyə sübut edə bilməməsidir.***









Bu, o Sarkisyandır ki, hər kəsin qarşısında diz çökə-çökə və hər kəsə alçaq dağlar vəd edə-edə, Qərblə Rusiya arasında qaldı. İndi Ermənistan ora-bura atılan futbol topuna bənzəyir. Sarkisyan elə bilirdi ki, geosiyasi "gəzinti", daha dəqiq desək, geosiyasi "avaraçılıq"və prinsipsizlik ona "Sarkisyan atır... və qol" oyunu oynamaq imkanı verəcək, lakin heç də belə olmadı. Qərb və Rusiya onu istifadə müddəti bitmiş bir "mal" kimi "spisat" etdi.

Bu faktdır ki, Ermənistan siyasi, iqtisadi, hərbi və təhlükəsizlik baxımından Rusiyadan asılı vəziyyətdədir. Maraqlı odur ki, bu asılılıq hər keçən gün Ermənistanın əleyhinə artır. Beynəlxalq münasibətlər sistemində iki dövlət arasındakı münasibətlər qarşılıqlı asılılıq olaraq dəyərləndirilir. Tərəflər özlərinin maraqlarını ortaq məxrəcə gətirərək, əməkdaşlıq edir.



### Asim Mollazadə: "Yaxşı olar ki, Kreml rus xalqının maraqlarını nəzərə alaraq, inadkar siyasətdən vaz keçsin"







Sözügedən məsələyə münasibət bildirən millət vəkili Asim Mollazadə sanksiyaların sonuncu olmadığını və Rusiyaya qarşı daha ağır addımların atılacağını deyib: "ABŞ prezidentinin rəsmiləşdirdiyi bu addıma ilk reaksiya Rusiyanın baş naziri Dmitri Medvedevdən gəldi. Rusiyanın hökumət başçısı Trampın bu qərarını Moskvaya qarşı genişmiqyaslı ticarət müharibəsinin başlanğıcı kimi dəyərləndirdi. Baş nazir bəyan etdi ki, Tramp Rusiyaya qarşı yeni sanksiyalar haqqında qanunu imzalamaqla, Moskva ilə Vaşinqton arasında münasibətlərin yaxşılaşmasına olan ümidlərin üstündən xətt çəkdi. Bu isə, Rusiyaya qarşı genişmiqyaslı ticarət müharibəsinin başlanğıcını göstərir. Rusiya analitikləri isə, hesab edirlər ki, qanun Rusiyadan daha çox, Donald Trampa qarşı yönəldilib. Eyni zamanda, vurğulamaq istərdim ki, bu sanksiyalar sonuncu deyil və Rusiyaya qarşı daha ağır addımların atılacağı gözlənilir".

Millət vəkili onu da bildirdi ki, Rusiya belə bir məqamda ağıllı hərəkət edərək, geri addım atarsa, bu qərar Moskvanın maraqları üçün daha əlverişli olar: "Həm Suriyada, həm Ukraynada, həm də keçmiş SSRİ ərazisində təcavüzlərə, hədə-qorxulara son qoyularsa, bundan ancaq Rusiya qazanar. Eyni zamanda, dostyana siyasətdən rus xalqı da məmnun qalar. Mən düşünürəm ki, indiki sanksiyalar əvvəlkilərdən daha ağır olacaq. Ən əsası isə, odur ki, bu sanksiyalar paketi sonuncu deyil. Qarşıda Rusiyaya qarşı daha dağıdıcı addımlar atılacaq. Bu baxımdan, yaxşı olar ki, Kreml rus xalqının maraqlarını nəzərə alaraq, inadkar siyasətdən vaz keçsin. İndiki dövrdə inkişafın və uğurlu münasibətlərin yolu qarşıdurmalardan yox, əməkdaşlıqdan və kompramislərdən keçir".

### Qabil Hüseynli: "Sanksiyalar səbəbi ilə Rusiyanın Ermənistana dəstəyinin azalması mümkündür"

Politoloq Qabil Hüseynli də ABŞ-ın sanksiyaları ilə bağlı məsələyə toxunaraq, bildirib ki, bu sanksiyalar müəyyən qədər Rusiyanın zəifləməsinə gətirib çıxaracaq. Onun sözlərinə görə, Rusiyanın 200 illik siyasətindən imtina edəcəyi o qədər də inandırıcı görünmür: "Tətbiq edilən sanksiyalar, əsasən, neft və qaz çıxarılması ilə bağlı sənaye sahələrini əhatə edir. Silah istehsalı isə, həmişə Rusiyada önəmli sahələrdən biri hesab edilib. Bu sahəyə kifayət qədər vəsait ayrılıb. Sanksiyalar əhəmiyyətli sanksiyalardır və bu sanksiyalar Rusiya daxilində ciddi təbəddüllatlara səbəb olacaq. Bu, əhalinin sosial etirazlarına belə səbəb ola bilər. Lakin Ermənistan məsələsi, bilavasitə siyasi elita ilə bağlı məsələdir. 200 ilə yaxındır ki, Rusiya erməniləri himayə edir və bu səbəbdən də, bu dəstəyin sona çatacağını iddia etmək xeyli çətindir və sanksiyalar səbəbi ilə Rusiyanın Ermənistana dəstəyinin azalması mümkündür".

**A.SƏMƏDOVA**

# Yunusların maxinasiyaları davam edir

*Erməniçilik toplusu qanun qarşısında cavab verəcək*

***Uzun müddət "hüquq müdafiəçisi" maskası altında gizlənən "Sülh və Demokratiya İnstitutu"nun rəhbəri Leyla və Arif Yunus xarici dairələrdən aldıqları külli miqdarda qrantlar müqabilində ölkəmizin milli və dövlətçilik maraqlarına zərbələr vurmaqla məşğuldurlar. Elə buna görə də, erməni lobbisinin təsiri altında olan bəzi xarici "hüquq-müdafiə" təşkilatları və anti-Azərbaycan qüvvələr L.Yunusun "insan haqlarının yorulmaz müdafiəçisi" obrazını yaradaraq, ona dəstək veriblər.***

Bu çirkin xislətli məxluq 25 ildən çox bir müddətdə ermənilərlə işbirliyinə girərək, sözün həqiqi mənasında, ölkəmizə qarşı vuruşmaqla yanaşı, hər zaman qondarma "DQR"-i "müstəqil dövlət" kimi qələmə verib, Azərbaycanın milli maraqlarının əleyhinə təbliğat aparıb.

Leyla və Arif Yunuslar birlikdə "hüquq müdafiəçisi" kimi fəaliyyət göstərdikləri müddətdə dələduzluq, qanunsuz sahibkarlıqla məşğul olmuş və vergidən də yayınmışlar. Onlar 896 min manat məbləğində qrant müqavilələrini Ədliyyə Nazirliyində qeydiyyatdan keçirməyiblər. Qrantları banklarda nağdlaşdırarkən, heç bir maliyyə uçotu aparmayıblar.

Bu "məşhur" cütlüklə bağlı müxalifət fəalı, Çexiyada yaşayan siyasi mühacir Zamiq Məmmədli yeni faktlarla çıxış edib. Məlum olub ki, Azərbaycanı tərk etmiş və yayılan məlumatlara əsasən, onlarla bank kartına malik olan, "hüquq müdafiəçisi" adlandırılan bu ailə cütlüyü Avropada özlərinə çox yaxşı



güzəran qurub: "Onlar artıq Amsterdamda, Antalyada və Praqada istirahət etməyə vaxt tapıblar. Hətta Praqada Bechlinska 705/4, Praqa 9 ünvanında iki mənzil almağı da bacarıblar.

Z.Məmmədlinin özü Praqada 12 ildir yaşayır, ancaq kirayə tutduğu mənzildə. "Təhdid olunan" hüquq müdafiəçiləri isə "qəfildən" orada özləri üçün ev əldə ediblər, özü də birini yox..."

Yeri gəlmişkən, bundan əvvəl Z.Məmmədli digər fəal Emin Millini Azərbaycanın milli maraqlarına xəyanətdə ittiham etmişdi. Bu, "Meydan" TV-nin rəhbəri Emin Millinin Avropa Parlamentində erməni yönümlü deputatlarla birlikdə çıxış edəndə olmuşdu...

## Əli Kərimli-Leyla Yunus iş birliyi maliyyə imkanlarını siyasiləşmiş QHT-lər vasitəsilə həyata keçirir

Bu, real faktdır ki, AXCP və Müsavat partiyaları xaricdən əldə olunan maliyyə vəsaitini təsirləri altında olan QHT-lər vasitəsilə mənimsəməyə daha çox meyil göstərirlər. Elə bu səbədən də, AXCP sədri Ə.Kərimlinin iş birliyində olduğu "Sülh və Demokratiya İnstitutu"nun rəhbəri Leyla Yunusun, külli miqdarda vəsaiti xaricdən əldə etdikdən sonra, siyasi partiyalara ötürməsi dəfələrlə mətbuata müzakirə mövzularından olub.

Azərbaycan Baş Prokurorluğu tərəfindən Leyla-Arif Yunuslar cütlüyü ilə bağlı cinayət işi qaldırılıb. Məhkəmə bu şəxslərin məcburi qaydada məhkəməyə gətirilmələri barədə qərar qəbul edib. "İnterpol" tərəfindən axtarışda olan bu şəxslərin yaxın vaxtlarda həbs edilərək, Azərbaycana gətiriləcəyi də şübhəsizdir. Çünki bu şəxslər vergi və maliyyə qaydalarını tamamilə pozaraq, ümumilikdə, 2 milyon 500 min avro qrant alıblar ki, bu vəsaitlər maliyyə uçotuna alınmayıb. Vergi və maliyyə, eləcə də, Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının apardığı birgə araşdırma zamanı, məlum olub ki, Leyla və Arif Yunusların xaricdən aldıqları qrantlar heç bir halda uçota alınmayıb, ciddi maliyyə pozuntularına yol verilib, vəsaitlərin yayınma halları törədilib. Ancaq onlar bilməlidirlər ki, qanuna tabe olmayanların mütləq ədalət məhkəməsi qarşısında otuzdurulacaqları şübhəsizdir.

Bir də bu gün erməni deyilən bir bici - nəsli-kökü bilinməzi azərbaycanlı deyilən bir qeyrətlidən daha artıq tutmaqla, əslində, nə qədər mənəviyyatsız olduqlarını göstərirlər. Sözsüz ki, mənəviyyatı, şərəfi, ləyaqəti olmayandan başqa heç nə gözləməyə dəyməz. Leyla-Arif Yunuslar, Emin Milli, Qənimət Zahid, Ə.Kərimli kimi çaqqallar erməniyə dayı, əmi, hətta ata deyən axecepenin satqınbaşılarıdırlar.

**Rəfiqə HÜSEYNOVA**

# "Azərbaycan heç vaxt işğalla razılaşmayacaq"

*Elşən Manafov: "Sarkisyanın özü də başa düşür ki, status-kvonun saxlanılması qəbuledilməzdir və bu, uzun müddətli davam edə bilməz"*

***Son vaxtlar Ermənistanın terrorçu rejimi cəbhə xəttində atəşgah rejimini, ardıcıl olaraq, pozmaqda davam edir. Azərbaycanın sərhədyanı rayonlarında yaşayan mülki əhalini hədəf seçən Sarkisyan rejimi onları qətlə yetirməkdən, yaşayış yerlərini dağıtmaqdan, əkin-biçinlə məşğul olan fermerləri güllə atəşinə tutmaqdan çəkinmir.***

Füzulinin Alxanlı kəndində ana və onun iki yaşlı övladını qətlə yetirməyinin ardınca, qəsbkar Ermənistan hərbi xuntası 16 yaşlı uşağı snayper gülləsi ilə yaralayıb. Bütün bunlar Ermənistanın bilərəkdən təxribat törətdiyini və Azərbaycanı qəti addımlar atmağa sövq etdiyini göstərir. Ancaq Azərbaycan, hələ ki, səbrli davranış nümayiş etdirir. Azərbaycan Silahlı Qüvvələrinin sərt və qətiyyətli addımları, Ermənistanın bir dövlət olaraq, mövcudluğuna son qoyacağı şübhəsizdir. Politoloq Elşən Manafov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Ermənistanı yiyəsiz küçə itləri kimi özbaşınalıq nümayiş etdirməyə həvəsləndirən erməni lobbisi və bəzi xarici havadarlarıdır: "Sirr deyil ki, Ermənistan Rusiyadan asılı bir ölkədir. Yəni Sarkisyan, birmənalı şəkildə, Rusiyanın hərbi və siyasi



dəstəyi şəraitində hakimiyyətdə qalıb. Birmənalı mövqe ondan ibarətdir ki, Ermənistan hakimiyyəti də kifayət qədər korrupsiyaya uğramış bir hakimiyyətdir. İşğalçı ölkə olan Ermənistan hərbi, siyasi və iqtisadi cəhətdən çökük. Onu yalnız düşdüyü ağır, üzücü böhrandan Rusiya və xaricdəki erməni lobbisi çıxarmağa çalışır. Rusiyanın məlum dəstəyi olmadan Ermənistanın hakim zümrəsi, qısa zaman kəsiyində iqtidardan gedəcəyi də heç kəsdə şübhə doğurmur. Demək olar ki, bu gün işğalçı ölkə olan Ermənistan elə bir pis vəziyyətdədir ki, artıq bu ölkədə heç kəs yaşamaq istəmir. Yəni ermənilər yaşamaq üçün öz ölkələrini tərk edərək, başqa ölkələrə gedirlər".

Politoloq onu da bildirdi ki, əlbəttə, biz istəyirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh danışıqlar, yolu ilə həll olunsun. Yəni Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində danışıqlar davam etdirilməlidir: " Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi ilə bağlı masa arxasında oturmaqdan yayınmasında Sarkisyanın məqsədi, mövcud status-kvonun mümkün qədər uzatmaq istəyidir. Sarkisyanın özü də başa düşür ki, status-kvonun saxlanılması qəbuledilməzdir və uzun müddətli davam edə bilməz. Çünki Azərbaycan heç vaxt işğalla razılaşmayacaq. Sarkisyan bilir ki, yenidən müharibə alovlansa, Azərbaycan Ordusu hərbi potensialından geniş istifadə edəcək və düşmənə qarşı amansız olacaqdır. Düşünürəm ki, ona görə də, Sarkisyan rejimi danışıqlara razılıq verib. Digər tərəfdən isə, işğalçı ölkə olan Ermənistanın bu cür hərəkətlərinə göz yuman və görməzlikdən gələn beynəlxalq güclərin susqunluq nümayiş etdirməsi başa düşülən deyil. Əlbəttə ki, əgər Ermənistana beynəlxalq güclər tərəfindən hər hansı bir cəza tətbiq olunmadığı təqdirdə, işğalçı ölkədə özünü bu cür cəzasızlıq şəraitində hiss edərək, belə davranacaqdır. Onsuz da gec-tez Ermənistan etdiyi bütün əməllərinə görə cəzalanacaq və işğal etdiyi torpaqları azad etməyə məcbur qalacaqdır".

**GÜLYANƏ**



## "Milli Şura"nın mövsüm mitinqinin qrant xülyaları

**RƏFİQƏ**

***"Milli Şura" adlı ölü qurumun 2018-ci ildə keçiriləcək növbəti prezident seçkilərinə, xeyli vaxt qalmasına baxmayaraq, yayın qora bişirən istisində sezon mitinqlərinə başlamaq istəklərini bildirirlər. Adıçəkilən bu ölü qurumda mümkün qədər eyforiyalara qapılmaq imkanları olacaq. Həmin eyforiyalarda daha nələr deyilməyəcək, nələr danışılmayacaq və nələr hapa-gopa basılmayacaq? Ə.Kərimli sol tərəfdən, C.Həsənli sağ tərəfdən, daha nə bilim aşağıdan, yuxarıdan, ən əsası da satqınçılıq və xəyanətkarlıq simvolu olan X.İsmayıl, daha kimlər və kimlər çırtıq çalıb ortaya düşəcəklər ki, bəs "Milli Şura" yas palatkasından toy palatkasına keçid aldı və seçkiərəfəsi qrantlar onları gözləyir.***

Bu yerdə, ay qrant xəstəliyinə tutulanlar, çayı hoppanmamış, bərəkallah, deməyin. Bir də siz bütün seçkilərdə bu biabırçılıqdan sonra heç utanmırsınız ki, yenə də mitinq keçirmək istəyirsiniz? Mən də gör nədən danışırım. Məgər qranta görə hər şeylərindən keçənlər nə etməyiblər? Satqınçılıq, abırsızlıq, qeyrətsizlik... Çünki ziddiyyət deyilən bir zad onların boyunlarına görə ölçülmüş xaltadır. Keçib boyunlarına və çıxara bilmirlər. Ona görə də, istənilən mövzuda onların aralarında o söz olur. Budəfəki söz isə, bir məqamın üzərində dayanıb. Nədir həmin məqam? Məsələ ondadır ki, bu günə kimi keçirilən aksiyalardakı biabırçılıqlardan sonra hər hansı "möhtəşəmlikdən" danışmağın, ümumiyyətlə, yeri yoxdur.

Seçkiərəfəsi ölkədə qarmaqarışıqlıq planlaşdırmaqla Avropa və digər xarici dairələrdən maddi vəsaitlər əldə olunsun. Xərclənən pullar isə, bayağılıqları ilə seçilən sərsəm mitinq tamaşaları vasitəsi ilə ört-basdır edilsin.

Belə bir məqamda, daha bir məsələ diqqət çəkir. Məsələn, götürək "siyasi məhbus" oyunbazlığını. Sirr deyil ki, qrant xəstəliyinə tutulanların hər seçkiərəfəsi belə böhtan dolu mövzunu ortaya atması, maliyyə yardımının qalxmasına səbəb olduğu üçün, hətta aşağıdan yuxarı deyilən gözəl söyüşlərə belə razı olurlar. Bu məqsədlə, müxtəlif ictimai-siyasi hadisələr fonunda, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin önündə "gecələyən", hətta dipkorpusların otaqlarını kirayələməyə belə hazır olan bu toplum Azərbaycana təzyiqlər edilməsi üçün boş dayanmırlar, donoslar, "şikayətnamələr" yollayırlar.

Deyilənləri təsdiqləyən növbəti fakt onların iç üzüdür. Belə ki, yeri gəlmişkən, Azərbaycan Milli Mətbuatının 142-ci ildönümü ilə bağlı dövlətin 255 media təmsilçisinə bağışladığı mənzillər ətrafında özlərini ülgücləyən X.İsmayıl, Həbib Müntəzir və başqa bənzər haray-şivənçilər guya kənarda qalanların "təəssüblərini" çəkərək, özlərindən qondarma siyahılar hazırlamaqla, ölkə başçısının nəcib əməlinə kölgə salmağa səy göstərirlər.

Beləliklə, boyca balaca və zəhlətökən hürmələri ilə tanınan zınqırov itləri bu mitinqlərdə də hürüb-hürüb axırda yorulub, susarlar. Bunlar da belələrindəndir, hürmələrinə görə isə, onların qarşısına kimlərsə sürdən-sümükdən, yaldan-zaddan atacaq.

# Əhməd bəy Ağaoğlunun dövlətçilik konsepsiyası

***Azərbaycanın dövlətçilik tarixində Ə.Ağaoğlunun dövlətçilik konsepsiyası əsas və mühüm yer tutur. Məlum olduğu kimi, XX əsrin əvvəllərində Avropada, Qərbdə milli dövlətlər meydana gəldiyi halda, Şərqdə Türkiyə və Azərbaycanda dövləti hökumətlə qarışdırır, hətta hökumətləri, dövlətləri bir şəxsin, ailənin və sülalənin adı ilə adlandırırdılar. Ə.Ağaoğlu bunun düz olmadığını deyirdi: “Halbuki bu üç məfhum, yəni hökumət, sülalə və dövlət arasında istər zahiri, istər batini, istər maddi və istərsə də mənəvi cəhətdən çox bariz fərqlər mövcuddur. Fəqət, Şərq bunları qarışdırmış, hər sülaləni ayrı bir dövlət hesab etmiş və hər yeni gələn özündən əvvəl gələnləri, adətən, əcnəbi hesab etmişdir...”***

Bu dövrdə türk xalqları arasında türkçülük, osmançılıq və islamçılıq ideyaları geniş yayılmışdı. Məhz belə bir dövrdə Azərbaycanın görkəmli mütəfəkkirləri Əli bəy Hüseynzadə və Ə.Ağaoğlu azərbaycanlıların milli şüuru və dövlətçiliyi uğrunda mübarizə aparmağa başladılar. Z.Göyalp “Türkçülüyün əsasları” əsərində bunu təsdiq edərək yazır: “Bu vaxt Hüseynzadə Əli bəy İstanbuldan və Ağaoğlu Əhməd bəy Parisdən Bakıya gəlmiş və orada fikir savaşı üçün əl-ələ vermişdilər. Topçubaşov da bunlara qoşuldu. Bu üç şəxs orada o zamana qədər hakim olan sünnilik və şiəlik anlaşmazlıqlarını ortadan qaldıraraq, türk və islamlıq fikirləri ətrafında bütün azərbaycanlıları toplamağa çalışdılar”.

Ş.Hüseynov Ə.Ağaoğlunun dövlətçilik konsepsiyasını səciyyələndirərək, göstərir ki, Ə.Ağaoğlunun düsturuna görə, həqiqətdə dövlət bir millətin əhatə etdiyi ərazi ilə o millətin bütün siyasi, ictimai, iqtisadi idarələrinə deyildiyi halda, hökumət yalnız o idarələrin bir qismini və sülalə isə çox məhdud bir hissəsini ifadə edir. “Dövlət sülaləsiz yaşaya bilir, necə ki, bu gün cahanın çox qismi cümhuriyyət üsulu ilə yaşayır. Hökumətə gəlincə, o, zatən, mahiyyəti etibarilə dəyişkən bir şeydir və hər zaman başqa bir şəkil ala bilir. Odur ki, bir dövləti bir sülalə və yaxud hökumət adı ilə adlandırmaq qədər qeyri-elmi və əsassız bir hərəkət təsəvvür edilə bilməz. Eyni zamanda, bu cür təsəvvür çox xətalı bir zehniyyəti də ifadə edir.

Ə.Ağaoğlunun dövlət və dövlətçilik konsepsiyalarının əsaslandırılmış məntiqinə görə, dövləti sülalə adı ilə adlandırmaq dövləti sülalədən ibarət hesab etməkdən irəli gəlir ki, bu təqdirdə, sülalə yıxılanda və yaxud süqut edəndə, dövlətin də yıxılması, məhv olması lazım gəlir. Həqiqətdə isə dövləti yaradan, dövlətin bərqarar amili və müəssisəsi, məhz millətdir. Sülalə yıxılır, ancaq millət yaşayır və daha ləyaqətli və istedadlı rəhbərləri ilə dövlətin təməlini təzələndirir, müəllifin təbirincə deyilsə, ona daha ziyadə şölə və dəbdəbə verir: “Həqiqət bundan ibarətkən və dövlət özünü qurmuş olan millətin adını daşıyaraq millətin davamı, mövcudiyyəti ilə özünün də davam və mövcud olmasını dərk etməli olduğu halda, yanlış bir tələqqi ilə başqa bir ad alaraq, özünü başqa bir şey hesab edir. Bu qəribə hadisənin əməli nəticəsi olmaq üzrə milli tarixin sona yetib qırılmasını, milli vəhdətin pozulmasını, guya yeni təşəkkül etmiş olan dövlətin əski dövlətə nisbətən bir növ yabançı və hətta düşmən qaldığını zikr edə bilərik. Bu qəribə düşüncə tərzinin ən canlı misalını bir tərəfdən İran, digər tərəfdən Osmanlı tarixlərində görürük”.

Məsələn, İranda səfəviləri, əfşarları, qacarları hakimiyyət başına gətirən, taxt-tac sahibi edən eyni ünsür, eyni amil, yəni millət, xalq idi. Lakin bu sülalələr özlərini ayrı-ayrı və birbirinə düşmən dövlətlər hesab etdiklərindən, hər sülalə özünü ondan əvvəl gəlmiş olan sülalələrin bütün miraslarını dağıtmağa və məhv etməyə borclu saymışdır.

Ş.Hüseynov yazır: “Şərqin dövlət və dövlətçilik baxımından özünəməxsus istibdad qurumlarından, o cümlədən, İran, Osmanlı məmləkətlərinin siyasi strukturlarından səciyyəvi misallar əsasında quran Ağaoğlu, eyni zamanda, həmin dövlətçiliyin daxili mexanizmində ciddi rol oynayan yerli əhali, milli və əcnəbi xalq və tayfalar amillərini də araşdırır, müəyyən nəticələrə gəlir. O göstərir ki, Osmanlı imperiyası dövründə dövlətin hakimiyyəti altına alınmış ünsürlərdən bir çoxları fəth olunduqları əsnada istiqlala malik deyildilər. Osmanlı dövləti onları digər əcnəbi tabeliyindən alıb fəth haqqı adı ilə ilhaq etmişdir. İstiqlallarını itirmiş tayfa və xalqlar isə razı olmaqla bağlanmış bir müşahidə ilə müştərək bir dövlət təşkili naminə deyil, yenə fəth haqqı adı ilə dövlətin içinə alınmışlar.

Bu mexanizmdə islam olanlar və qeyri-islami ünsürlərin, məsələn, xristianların ümumdövlət tərkibində iştirakı məsələsinin təhlilində Ağaoğlu çox orijinal nəticələrə və qənaətlərə gəlir. O göstərir ki, bu qövmlərdən islam olanların, ilk gündən etibarən, dövlətin əsasını qoyan millətin bütün hüququna malik olaraq, milli hakimiyyətdə tam iştirakları təmin olunmuşdu. Lakin bu iştirak bir müşahidə, bağlaşma yolu ilə deyil, vahid dövlətin qəbul və tətbiq etdiyi bir prinsip, bir üsul xatirinə idi. Bütün bu cür yerlərdə dövlət öz üsul-idarəsi, təsisatları və qanunları baxımından, bir küll-vahidlik mənzərəsini təşkil edirdi. Xristian qövmlərinə gəlincə, Ağaoğlunun müşahidələrinə görə, onlar haqqında söhbət getdiyi dövrə qədər bütün dünyada mövcud və hökmran olmuş fəth haqqa naminə dövlətə idhaq edilmişlər. Başqa sözlə, ilhaq icra edildiyi zaman bütün dünyada cari olan beynəlmiləl qayda və qanuna uyğun olaraq, bu millətlər fatehin şəfqət və mərhəmətinə arxalanmaqdan başqa, heç bir iddia etmək haqqına malik deyildilər. Onlar həmin dövrlərdə dövləti təsis etmiş, müəssis millətlə bərabər hüquqa malik olmaq və yaxud milli hakimiyyətdə iştirak eləmək iddiasını irəli sürə bilməzdilər. Çünki o zamanlar bütün dünyada fəaliyyət göstərən və bütün vicdanlara hakim kəsilmiş prinsip - qalibin məğlub üzərində mütləq ağalıq haqqını qəbul etməkdən ibarət olmuşdur. Ağaoğlu misal gətirir ki, osmanlılar bu fəthlərin icrasını İspaniyada həyata keçirib qalib gəlmişlərsə, ispaniyalılar da bu yolla ərəblər üzərində qələbə çalmışlar. Ağaoğlunun təfsirinə görə, ispaniyalılar fəth etdikləri yerlərdə bir tək müsəlmanı belə azad buraxmamış, onların mallarına, canlarına tamamilə sahib olmuşlar. Lakin Osmanlılar xristianlara qarşı böyük bir etidal, mötədillik, mülayimlik, o zamanlar misli görünməyən bir comərdlik göstərmişlər, dini və milli təsisatlarına toxunmamışlar, onların olduğu kimi, mühafizəsinə icazə vermişlər. Amma bu, artıq millətləri bir toplu halda özündə cəm etmək xatirinə tərəflərin razılığı ilə yaranmış bir müahidənamə və ya müqavilə deyildi, sırf fateh millətin qəbul və tətbiq etdiyi bir üsul naminə idi. Burada dövlət, İngiltərədə olduğu kimi, millətlər dövləti deyildi, elə bir vahidi-küll idi ki, onun müəssisi idarə və təşkilat sarıdan müvafiq bildiyi müəyyən bir üsulu tətbiq edirdi.

Ağaoğlu bu cür dövlət tipinin əsasının vəhdət olduğunu qeyd edir və göstərir ki, həmin vəhdəti mühafizə niyyəti ilə seçilən bir üsuli-idarənin verdiyi icazə və imtiyazlar heç bir zaman o vəhdəti pozacaq bir mahiyyət və şəkil ala bilməzdi. Çünki istədiyi gündən etibarən onları ləğv etmək, aradan qaldırmaq yenə dövlətin bir haqqı idi və bu haqqa qarşı bir etiraz edilə bilməzdi.

Osmanlı tarixini tədqiq edən Ağaoğlu təəssüf hissilə belə bir ümumiləşdirici qənaətə gəlir ki, Osmanlı dövlətinin quruluş tərzi bu vəhdət ikən, zaman keçdikcə və məhz dövlət xadimlərinin zəifliyi və dövlətin mahiyyətini dərk etməmələri üzündən felən bir caməə, bir millətlər dövləti zehniyyəti mövcud olmuşdur. Xristianlara bəxş edilmiş bu icazələrin get-gedə sanki müahidə ilə alınmış təbii haqq hesab edilməsi əsasında, dövlətin istinad etdiyi struktur sarsılmağa başladı, vəhdət pozuldu. Hər tayfa, camaat özünü dövlət içində xüsusi bir üzv hesab edərək, dövlətə qarşı bir sıra imtiyazlardan, xüsusi təsisatdan bəhs etməyə başladı. Elə həmin andan da Osmanlı dövlətinin süqutu başlandı”.

Ə.Ağaoğlu dövlətçiliyin inkişafı üçün aşağıdakı amillərin zəruriliyini xüsusi qeyd etmişdir:

1. Güc ilə zəkanın vəhdəti;
2. Asayişin və inzibatın təminatı;
3. Ticarətin və sənayenin inkişaf etdirilməsi;
4. Dövlətdə yaşayan xalqların, millətlərin, bütün əhalinin “hissiyyat, amal və arzularının vəhdətinə” nail olmaq;
5. Elm, ürfan, iqtisadi və texniki inkişafa yardım etmək;
6. Hökmdar və sülalə ilə birlikdə dövlətin də mühafizə edilməsi;
7. Qanuna itaətin fəzilət hesab olunması.

Ə.Ağaoğlu “dövlətin padşahın malı hesab edildiyi mühitdə” - o vaxtkı Osmanlı Türkiyəsində bəzi erməni rəhbərlərin xain mövqeyini kəskin tənqid edirdi.

Ağaoğlu əlindən çox yanıqlı olduğu xəyanətini çoxdan gördüyü erməni “əfəndi” və “paşalar” haqqında tutarlı ittihamlar irəli sürür: “Millətləri felən dövlətə qarşı üsyan etmiş və dövlətin bünövrəsini qırmağa cəhd edən bir Aramyan əfəndinin, bir Aristidi paşanın hakim məqamlardan qopardıqları ənamlardan başqa, dövlətə hər hansı bir xeyir verəcəklərini təsəvvür etmək üçün adam gərək axmaq olsun”. Çox təbiidir ki, Türkiyə tərəfindən Sevr müşahidənaməsi kimi biabırçı bir müahidəni imzalayanlar da ərəb Hadi Paşa ilə arnavud Rza Tevfiq olmuşdur. Onlar nə itirirdilər ki?! Əksinə, adları, - bu yolla da olsa, - “tarixə düşürdü”.

1920-ci il avqustun 10-da Paris yaxınlığındakı məşhur Sevr mərmər manufaktura binasında Versal müqavilələr sisteminə daxil olan son sənəd - Türkiyə ilə sülh müqaviləsi bağlanmışdı. Ümumiyyətlə, Versal sistemi və onun tərkib hissəsi olan Sevr müqaviləsi, bütünlüklə zorakılığa əsaslanırdı. Xalqların mənafeyi qətiyyən nəzərə alınmamışdı. İngiltərə və Fransa Türkiyə məsələsinə “büsbütün Avropa nöqteyi-nəzərindən” baxmışdılar. Müqavilənin maddələrindən çoxu Türkiyə məsələsinə “büsbütün Avropa nöqteyi-nəzərindən” baxmışdılar. Müqavilənin maddələrindən çoxu türklər üçün təhqiramiz mahiyyətdə olub, bu ölkəni və onun xalqını çox ağır və çıxılmaz hala salmışdı. Təkcə onu qeyd etmək kifayətdir ki, “boğazlar zonası, bütünlüklə müttəfiqlərin (əslində, İngiltərənin) ixtiyarına keçirdi. İstanbulun türklər üçün “qalması” isə sultana hörmət barədə quru sözdən başqa bir şey deyildi”.

Ağaoğlunun bu müşahidələrə qol çəkənlərdən biri olan Rza Tevfiqdən ciddi narazılığının səbəbi onun “bu dövlət və millətin - Türkiyə və türk millətinin talan” edilməsində bir neçə dəfə pis mövqe tutması olmuşdur: “Fəqət, bu həmin adam deyilmi ki, dövlətin ən böhranlı zamanında onun başına keçir, idarə olunmasında iştirak edir, taleyinin müəyyənləşməsində nüfuzlu bir rəy sahibi olur və nəhayət, Ağaoğlunun, yəni türk Vətəninin üsyanının əksinə olaraq, onun ölümünə hökm verən bu müqaviləni onun adından imza edir? (...). Bu kimi faciələr yalnız və yalnız bizim kimi kamala çatmamış, dövləti padşahın malı hesab edən mühitlərdə baş verə bilər”. Üç yüz ildir ki, əsil-nəsəbi bilinməyən, bu dövləti quranlarla “maddi və mənəvi heç bir əlaqəsi olmayan bir neçə qadın və kişi dövlətin başına nə qədər müdhiş fəlakətlər gətirmişlərdir! Milli tariximizə o qanlı və müdhiş şəkli verənlərin, hətta yüzdə doxsanı bu kimi qeyri-türklərdir. Bunların sarayda və saray ətrafında icra etdikləri hiylə, fırıldaq, xəyanət və cinayətlər, törətdikləri qanlı faciələrdir ki, milli tariximizi qan ləkələrinə bulaşdırmışdır”.

Saray əhali haqqında düşünməmiş, şəhərlərin abadlığı barədə bir iş görülməmişdir. Sultan Süleyman dövründən bəri bu sahədə irəliyə bircə addım da atılmayıb. “Bax, “dövlət” məfhumunun yanlış başa düşülməsinin qəmli və fəci nəticələri belədir. XIV Lüinin “dövlət mənəm” dediyi zamanlar çoxdan keçmişdir, (...). Dövlət millətdir, dövləti quranlardır. Bütün hakimiyyət, ona aid olduğu kimi, bütün hüquq da onundur. Hər kim bu həqiqəti qəbul etmirsə, o, dövləti idarə etmədə iştirak edə bilməz. Bolşeviklər belə bir düsturu tətbiq etməkdədirlər. Azərbaycan, Ukrayna, Gürcüstan, Ermənistan, Türküstan, - xülasə, bütün qeyri-millətlərdən olanlar - əsas ünsürün ruhunu, xasiyyətlərini, idarə tərzini qəbul etmək məcburiyyətindədirlər. Bu qaydanın yerinə yetirilməsini təmin etmək üçün onlar “özlərinə sadiq yerliləri iş başına gətirməklə kifayət etməyərək, hər tərəfdə idarə başında bir rus əksəriyyəti təminə çalışırlar”.

**_Vahid ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti çərçivəsində hazırlanıb*

## Səudiyyə Ərəbistanının Səhiyyə Nazirliyi həcc ziyarətinə hazırlaşır



Səudiyyə Ərəbistanının hakimiyyət orqanları İslam aləminin müqəddəs məkanlarına həcc ziyarəti üçün Məkkə və Mədinəyə gələn zəvvarların təhlükəsizliyini təmin etməkdən ötrü təqribən 30 min tibb işçisi cəlb edəcəklər.

AZƏRTAC "Medportal" saytına istinadla xəbər verir ki, bu il həcc mövsümünün başlanması təxminən avqustun 30-na təsadüf edir və sentyabrın 4-də başa çatacaq. Həmin dövrdə Ərəfat dağı, Mina vadisi ətraflarında, habelə Məkkə və Mədinədə təxminən 25 xəstəxana gücləndirilmiş iş rejiminə keçəcək. Bundan əlavə, 150-dən çox mobil hospital yaratmaq planlaşdırılır. Eyni vaxtda təqribən beş min adam tibbi yardım ala biləcək. Xəstələrin təcili daşınmasına 100 təcili yardım maşını ayrılacaq.

Bundan əlavə, idarə zəvvarlara xidmət edən bütün heyətin meningit və qripə qarşı vaksinasiyası proqramını da işə salıb. Ciddə Beynəlxalq Aeroportuna gələn zəvvarlar Dünya Səhiyyə Təşkilatının standartlarına müvafiq məcburi tibbi müayinədən keçməlidirlər. Səudiyyə Ərəbistanının səfirliklərinə viza üçün ərizə verilən zaman məcburi qaydada meningitdən vaksinasiya haqqında arayış təqdim edilməlidir.

Regionda epidemioloji vəziyyət gərgin olaraq qalır. Koronovirusun əmələ gəldiyi vaxtdan etibarən yeni koronovirus (MERS-CoV) dövranının son illər xeyli genişlənməsi (27 ölkədə 1791 hadisə, o cümlədən ölümlə nəticələnən 640 hadisə) qeydə alınıb. Bu faktların 80 faizindən çoxu Səudiyyə Ərəbistanı Krallığında qeydə alınıb. Koronovirus infeksiyası respirator traktının yuxarı şöbələrinin (bol seroz ifrazı ilə müşayiət olunan rinit, zəiflik, nasazlıq, boğazda qıcıqlanma, quru öskürək) zədələnməsi ilə xarakterizə olunan respirator xəstəlikdir. Xəstəliyin ağır gedişatı zamanı pnevmoniya ölümlə nəticələnə bilər.

## Saçları hər gün yumaq zərərlidir?



Bəzən çox yağlıdır deyərək hər gün saçlarını yuyan insanlara həkimlər saçlarını hər gün yumamağı məsləhət görürlər. Həkimlər saçları hər gün yumağın saçlara mənfi təsir edəcəyini hər gün yumaqla saçlar yağlılığını itirməz və bununla yanaşı dəridəki qoruyucu bakteriyalar yox olar nəticədə saç tğkülməsi və kəpəklənmə baş verər. Qoruyucu bakteriyalar yox olmaqla yanaşı həmçinin dəridə ziyanlı bakteriyaların yaranmasınada yol aça bilər. Həkimlər saçları həftədə 3 dəfə çox da isti olmayan ılıq su ilə yuyulmasının daha keyfiyyətli oladuğunu bildirmişlər. Eyni zamanda saça vurulan jele və digər bu kimi kimyəvi maddələrin saçda uzun muddət qalması saçların kökünü zəiflədərək saç tökülməsinə səbəb olur.

## Joze Mourinyo ona təqdim edilən medalı hədiyyə verib

"Mançester Yunayted"in baş məşqçisi Joze Mourinyo UEFA Super Kuboku uğrunda oyunda "Real"a məğlubiyyətdən (1:2) sonra ona təqdim edilən medalı hədiyyə verib. SİA-nın məlumatına görə, portuqaliyalı mütəxəssis mükafatlandırma mərasimi zamanı tribunaya yaxınlaşaraq, medalını "Mançester Yunayted"in azyaşlı azarkeşinə verib. O, matçdan sonra təşkil edilən mətbuat konfransında bildirib ki, mükafatlar onun üçün heç bir əhəmiyyət kəsb etmir.

## "Real Madrid" UEFA superkubokunu qazanıb




Makedoniyanın paytaxtı Skopyedə İspaniyanın "Real Madrid" və İngiltərənin "Mançester United" komandaları arasında keçirilən oyunda UEFA Superkubokunun qalibi müəyyən olunub. AZƏRTAC xəbər verir ki, Çempionlar Liqasının son qalibi "Real Madrid" Avroliqanı qazanan "Mançester"i 2:1 hesabı ilə məğlub edərək superkubokun sahibi olub.

Bakı vaxtı ilə saat 23:45-də qarşılıqlı hücumlarla başlayan matçın 24-cü dəqiqəsində "Real Madrid"in futbolçusu Kasemiro hesabı açıb. Fasiləyə 1:0 hesabı ilə üstün yollanan madridlilər ikinci hissənin əvvəlində daha bir dəfə fərqləniblər. İsko matçın 52-ci dəqiqəsində hesabı iki topa çatdırıb. Oyunun 62-ci dəqiqəsində Lukaku hesab arasındakı fərqi minumuma endirib - 2:1. Oyunda başqa qol vurulmayıb. Bununla da "Real Madrid" tarixində dördüncü dəfə superkuboka sahib çıxıb. Qeyd edək ki, 1972-ci ildən keçirilən Avropa superkubokunu ən çox hərəsi beş dəfə olmaqla "Barselona" və "Milan" komandaları qazanıblar.

## "Real" Qaret Beyli satmaq istəmir




"Real"ın prezidenti Florentino Peres Qaret Beyli satacaqları barədə yayılan iddialara münasibət bildirib. SİA-nın məlumatına görə, o, uelsli oyunçunun Madrid klubunda qalacağını deyib: "Beyli satmağı düşünmürük. Bizim üçün önəmli futbolçudur. O, dünyanın ən yaxşı oyunçularından biridir". Qeyd edək ki, "Mançester Yunayted"in baş məşqçisi Joze Mourinyo UEFA Superkubokunda "Real"la oyun öncəsi keçirdiyi mətbuat konfransında Q.Beyli transfer etmək istədiklərini açıqlamışdı.

## Arda Turan: "Qalatasaray"a qayıtmaq üçün fədakarlıq göstərməyə hazıram




Türkiyə millisinə qayıtmağa qərar verən futbolçu Arda Turan karyerasını qardaş ölkədə davam etdirmək niyyətindədir. AZƏRTAC klubun saytına istinadla xəbər verir ki, İspaniyanın "Barselona" komandasının futbolçusu əvvəllər çıxış etdiyi "Qalatasaray" klubunun təklifini qəbul edib. Arda Turan ona ödəniləcək məbləğdə doğma komandası olan "Qalatasaray" üçün fədakarlıq etməyə hazır olduğunu bildirib. Lakin o, Türkiyə klubunun rəhbərliyinin "Barselona" ilə razılaşmasının vacibliyini deyib.

Məlumatda "Qalatasaray"ın İspaniya klubuna icarə məbləği ilə birlikdə 10-12 milyon avro təklif etməsinin gözlənildiyi vurğulanır.

Qeyd edək ki, "Barselona"nın baş məşqçi Ernesto Valverdenin Ardaya qarşı biganə münasibəti İspaniyada da pis qarşılanıb. Ötən mövsümün əvvəlində "Barselona"nın braziliyalı futbolçusu Neymar Olimpiya Oyunlarında iştirak etməsi səbəbindən İspaniya klubunun heyətində çıxış etməyib və bu müddətdə heyətdə yer alan Arda yaxşı oyun nümayiş etdirib. Hətta braziliyalı futbolçunun Fransanın "PSJ" komandasına transferindən sonra Ardaya İspaniya klubunun heyətində yer verilməməsi türkiyəli futbolçunun "Barselona"dan ayrılacağı ilə bağlı mülahizələrin dolaşmasına səbəb olub. A.Turanın avqustun 13-də "Barselona"nın "Real Madrid" ilə qarşılaşacağı İspaniya Superkubokunun finalında heyətə daxil edilməyəcəyi təqdirdə Katalon klubundan ayrılacağı qeyd edilir.

Xatırladaq ki, 2005-2011-ci illərdə Türkiyə Superliqa təmsilçisinin heyətində çıxış edən Arda Turan 190 matçda 44 qol vurub və 76 məhsuldar ötürmə verib. "Barselona"da isə 55 oyunda 15 dəfə fərqlənib və 11 ötürmə ilə yadda qalıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**